www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 sentyabr 2014-cü il Şənbə № 223 (5932) Qiyməti 40 qəpik

**Xəbər**

## Rusiyada azərbaycanlıların kütləvi deportasiyasına başlandı

yazısı səh.13-də

**Gündəm**

## Prezidentlərin Uels görüşünün pərdəarxası



Qərb Qarabağ təşəbbüskarlığını Rusiyadan alır; ABŞ-ın patronajlığı ilə prezidentlərin İngiltərədə baş tutan görüşündə Vaşinqton münaqişə tərəflərini öz xalqlarını sülhə hazırlamağa çağırdı

yazısı səh.8-də

## Qərb SSRİ-ni çökdürmək planını indi də Kremlə tətbiq edir

yazısı səh.9-da

## Mollalara təmtəraqlı yaslarda iştirak qadağası qoyuldu

yazısı səh.10-da

## Moskvada Putin rejiminə qarşı aksiyalar başlayır

yazısı səh.9-da

## Prokurorluq Səidi Nurinin niyə ölkədən buraxılmadığına aydınlıq gətirdi

yazısı səh.11-də

*Əli Həsənov:*

## "Xaricdə təhsil alan gənclərimiz təşkilatlanmalıdır"

yazısı səh.6-da

## Tofiq Yaqublu Qubad İbadoğlunu dəstəklədi

yazısı səh.3-də

## Həbsdəki baş redaktorun cəzası artırılıb

yazısı səh.4-də

## Pərviz Həşimlinin qaynı qətlə yetirildi

yazısı səh.13-də

## YAP-çı deputatın Rusiyanı tərifləməsi etirazla qarşılandı

yazısı səh.9-da

## Naxçıvanda döyülən hüquq müdafiəçisi danışdı

yazısı səh.13-də

## İREX-in ofisində axtarış və müsadirə

yazısı səh.2-də

### "Əmri restoran rəhbəri şəxsən verdi: "Qırın bunları"...

# "OAZİS" DAVASINDAN YENİ ŞOK XƏBƏRLƏR

Əməkdaşımız qanla bitən ad gününün iştirakçıları ilə görüşdü; obyektin mühafizəçilərinin Avropa və dünya çempionu olduqları iddiası var; Vasif Şəfiyev: "Aşpazlar manqaldan şişi götürüb üstümüzə hücum çəkdilər..."

yazısı səh.12-də



## 3 ton maye heroin qaçaqmalçılarının kamera görüntüləri üzə çıxıb

"Yük" Azərbaycana daxil olandan sonra onu müşayiət edən avtomobillər müəyyənləşdirilərək kimlərə məxsus olduğu aydınlaşdırılıb; kamera görüntüləri sayəsində bir neçə nəfər həbs edilib; gömrük-keçid məntəqələrində yeni qaydalar tətbiq edilir

yazısı səh.4-də



*Hikmət Hacızadə:*

## "Məni söyənləri bağışlayıram, qoy danışsınlar..."

yazısı səh.4-də



Hafiz Məmmədov

## "Hafka"ya qarşı 50 milyon avroluq məhkəmə iddiası

yazısı səh.10-da



Devid Kramer

## "Freedom House" Azərbaycan hökumətinə qarşı sanksiyalara çağırır

yazısı səh.11-də

# Baş prokuror Zaqatalada vətəndaşları qəbul edəcək



**Baş prokuror Zakir Qaralov cari il sentyabrın 19-da saat 11:00-da Zaqatala Rayon Prokurorluğunun inzibati binasında Zaqatala, Balakən, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarında yaşayan vətəndaşları qəbul edəcək.**

Baş Prokurorluqdan musavat.com-a daxil olan məlumata görə, qəbula gəlmək istəyən vətəndaşların qeydiyyatı və Zaqatala rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı Baş Prokurorluğun müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

# Azərbaycana qarşı rus-gürcü xəyanəti

## Gürcüstanın azərbaycanlılar yaşayan kəndlərində sərhədlər geri çəkilir

**Gürcüstanın azərbaycanlılar yaşayan kəndləri ilə bağlı gizli razılıq əldə olunub. Belə ki, Ermənistanla sərhəddə yerləşən kəndlərin sərhəd xətti geri çəkilir. Xuludərə, Sadaxlı, Burma və Təzəkənd kəndlərinin ərazisində qeyri-rəsmi dəyişiklik edilir. Bu barədə əməkdaşımıza Gürcüstanda yaşayan azərbaycanlılar məlumat veriblər. Onlar bildiriblər ki, bu iki ölkə arasında sərhədlər dəqiqləşmədiyindən, azərbaycanlılar daim narahatlıqla prosesi izləyirlər.**

Sadaxlı kənd icra nümayəndəliyinə daxil olan kəndlər, əsasən də Burma kəndinin ərazisinin bir hissəsi bir müddətdir ki, ermənilər tərəfindən tutulur. Hazırda həmin kəndin ortasından ermənilər özləri üçün yol çəkiblər və həmin ərazi erməni hərbçiləri tərəfindən qorunur. Nəticədə azərbaycanlılar yaşayan kəndlərin içərisindən gün ərzində bir neçə dəfə Ermənistana məxsus texnika keçir. Kəndin böyük bir hissəsində meşə massivi, hətta sakinlər yaşayan evlər, otlaq sahələri də ermənilərin faktiki nəzarətinə keçib. Burma kəndində yeni bölgüyə əsasən, üç ev Ermənistan ərazisinə düşüb. Bu evlərdə isə azərbaycanlılar yaşayır.

Sakinlər bildirirlər ki, Ermənistanla Gürcüstan arasında qeyri-rəsmi sərhəd razılaşmasının olması səbəbindən Ermənistan da Gürcüstana müəyyən güzəştə gedib. Artıq gürcülər Cavaxetiya ərazisində 12 kilometr uzunluğunda sərhədi qeyri-rəsmi olaraq 400 metr irəli çəkiblər.

Qeyd edək ki, Ermənistan-Gürcüstan sərhədinin delimitasiya-demarkasiya işinin həyata keçirilməsi gecikir. Erməni sərhədçiləri də fürsətdən istifadə edərək sərhəd xəttini daha da irəli çəkir. Gürcüstanda yaşayan azərbaycanlılar isə baş verənləri Rusiyanın nəzarəti ilə başlayan və davam edən proses kimi qiymətləndirirlər. Sakinlərin qənaətinə görə, məqsəd Gürcüstanda yaşayan azərbaycanlı kəndlərinin boşaldılmasıdır.

❑ RÖYA

# Qarabağ problemi NATO-da



**NATO liderləri ilə görüşən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana verdiyi vədin üstündə durub. "Qafqazinfo" xəbər verir ki, NATO-nun zirvə toplantısında çıxış edən Ərdoğan təşkilatın Azərbaycana verdiyi vədləri yerinə yetirməli olduğunu vurğulayıb. Dövlət başçısı Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu qeyd edib.**

Xatırladaq ki, bugünlərdə ölkəmizdə səfərdə olan Türkiyə prezidenti dövlət başçısı İlham Əliyevlə görüşündə NATO-nun zirvə toplantısında təşkilatın Azərbaycana verdiyi vədləri yerinə yetirməsi ilə bağlı çıxış edəcəyini bildirmişdi.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# İREX-in ofisində axtarış və müsadirə

**Dünən günün ikinci yarısında prokurorluq işçiləri Amerikanın İREX təşkilatının ofisinə gəliblər. Onlar məhkəmə qərarı göstərərək, avadanlıqları - bütün elektron daşıyıcıları, habelə bu QHT-nin sənədlərini müsadirə etməyə başlayıblar.**

Məlumatlı mənbələrdən "Turan"a daxil olan məlumata görə, prokurorluq işçiləri cümə günü saat 11.00-da ofisə gəliblər, saat 17.00-da sənədlərin müsadirəsi davam edirdi.

İREX-dən şərh almaq mümkün olmayıb, təşkilatın telefonları cavab vermir.

Baş Prokurorluğun mətbuat xidmətindən də şərh almaq mümkün olmayıb.



# Leyla Yunusun ərinin infarkt xəbəri yalan çıxdı

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov həbsdə olan Leyla Yunusun MTN-in İstintaq Təcridxanasında saxlanılan əri Arif Yunusun səhhəti ilə bağlı açıqlama verib**

ANS PRESS-ə açıqlama verən **Elçin Behbudov** bildirib ki, Arif Yunusun həkimi ilə görüşüb: "Bəzi mətbuat orqanlarında yazılıb ki, guya Arif Yunus infakt keçirib, xəstədir. Mən MTN-in İstintaq Təcridxanasının həkimi ilə görüşdüm. Həkim Arif Yunusun tibbi toksikasını mənə təqdim etdi.

Həkim bildirdi ki, Arif Yunus ora qəbul olunan zaman onun şəkəri 97 olub. Yəni 120-yə qədər şəkər normadır. Mən özüm də şəkər xəstəsiyəm. Mənim şəkərim 250-dir. Ancaq Arif Yunusun şəkəri 97 olub. Demək ki, bu adamda şəkər normada olub. MTN-in təcridxanasına daxil olan zaman ürəyini kardioqrama ediblər. Arif Yunusda infarktın əlamətləri qətiyyən aşkar edilməyib. İnfaktın əlamətləri onda yoxdur".

Xatırladaq ki, Leyla Yunus iyulun 30-da, Arif Yunus avqustun 4-də həbs olunub. Leyla Yunusa dövlətə xəyanət maddəsi də daxil olmaqla, 6 ittiham, Arif Yunusa qarşı isə 2 ittiham irəli sürülüb.

# AXCP Rəyasət Heyətinin üzvü saxlanıldı

**Vəkil Mənsum Bayramov bir neçə gün öncə polis tərəfindən saxlanılıb. Bu barədə "Turan"a qeyri-rəsmi mənbələrdən bəlli olub.**

Mənbənin məlumatına görə, vəkil dələduzluqda ittiham olunur və onun barəsində artıq bir aylıq həbs-qətimkan tədbiri seçilib.

Mənsum Bayramovun mobil telefonuna zəng çatmır.

Rəsmi orqanlardan vəkilin həbsinin səbəbləri ilə bağlı məlumat almaq mümkün olmayıb.

Mənsum Bayramov 2005-ci ildə Mərkəzi Seçki Komissiyasının AXCP-nin namizədliyini irəli sürdüyü üzvü olub.

Musavat.com-da olan məlumata görə, o, hazırda da AXCP Rəyasət Heyətinin üzvüdür. Lakin "Turan" agentliyi iddia edir ki, vəkilin hazırda siyasi mənsubiyyəti yoxdur.

# Xədicə İsmayıl Bakı Hava Limanında saxlanılıb

## Jurnalistin bütün əşyalarını, bank kartlarını və üzərində olan pulları alıblar



**Sentyabrın 5-də səhər saatlarında AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayıl Gürcüstandan ölkəyə qayıdarkən Bakı Hava Limanında saxlanılıb. Bu barədə jurnalistin özü sosial şəbəkələrdə məlumat yayıb. İki saata yaxın saxlanıldıqdan sonra o, saat 08:25 radələrində sərbəst buraxılıb.**

Yoxlama zamanı Xədicə İsmayılın bütün əşyalarını, bank kartlarını və üzərində olan pulları alıblar. O, saxlanılması ilə bağlı facebookda belə bir status yazıb: "Üzərimdə geniş axtarış apardılar. Səfərdə ayağımı əzdiyim üçün arabada idim. Sərhədçilər kimisə çağırdılar, məni bir otağa apardılar. Sonra gömrükçülər gəldilər. Əşyalarımı bir-bir yoxladılar. Səfərdə ayağımı əzmişəm, ayağım sarıqdadır. Ayağımın sarğısını açıb yoxladılar. Pullarımı saydılar, gömrük bəyannaməsi yazıb-yazmadığımı, pulu Azərbaycandan aparıb-aparmadığımı soruşdular. Üzərimdə 3 800 avro, 500 dollar var idi. Hamısını götürdülər. Bank kartlarımı, hətta mağazadan verilmiş bonus kartımı da götürdülər. Ciblərimi də yoxladılar. İki saata yaxın bir otaqda saxladılar. Bundan sonra təkrar yoxlama apardıqdan sonra sərbəst buraxdılar".

Onu da qeyd edək ki, Xədicə İsmayıl bir neçə gün əvvəl beynəlxalq konfransda iştirak etmək üçün Gürcüstana getmişdi.

Jurnalistin saxlanılmasından daha çox insanları onun ayağının sarığının açılması maraqlandırır. Bu bir növ insana qarşı həyata keçirilən işgəncə metodlarından biri kimi qəbul edilir. Qanunda belə halların olub-olmamasını aydınlaşdırmaq üçün vəkil Anar Qasımlının fikirlərini öyrəndik. O, elə yerlərdə yoxlamadan keçən insanlara xüsusi diqqət ayrıldığını bildirdi: "Belə yoxlamadan keçən insanlara xüsusi diqqət ayrıldığı hər kəsə məlumdur. Çünki ən azından insanlar qadağan olunmuş bir şey apara bilərlər. Ayağı sarıqlı vəziyyətdə belə şeylər mümkün olur. Ən azından yoxlamaq mümkündür. Çünki sarıqlı vəziyyətdə qanunsuz pul keçirilə bilər. Təbii ki, yoxlamalar zamanı etik qaydalara əməl olunmalıdır. Texniki imkanlardan maksimum istifadə edilməlidir".

❑ Cavanşir ABBASLI

# NATO-dan Rusiyaya qarşı şok qərar...



**NATO baş katibi Anders Foq Rasmussen alyansın Ukrayna böhranı ilə bağlı qərarını açıqlayıb. Axar.az xəbər verir ki, Rasmussen Rusiya təhlükəsinə qarşı operativ müdaxilə qüvvələrinin NATO tərəfindən təsdiqləndiyini deyib.**

Baş katibin sözlərinə görə, 5 min nəfərlik quru və dəniz qüvvələrindən ibarət olacaq müdaxilə qrupu ehtiyac olan təqdirdə bir neçə gün ərzində hazır vəziyyətə gətiriləcək.

Alyansın növbəti sammitinin Polşada keçirilməsi ilə bağlı da qərar qəbul edilib.

Ukrayna prezidenti Petro Poroşenko atəşin dayandırılması haqda ilkin protokolun imzalandığını bəyan edib.

Musavat.com-un BBC-yə istinadla verdiyi xəbərə görə, sənəd bu gün yerli vaxtla saat 17:00-da (Bakı vaxtı ilə 19:00) qüvvəyə minməlidir. Ukrayna prezidenti bu barədə Nyuportda Norveçin baş naziri ilə görüş öncəsi söyləyib.

Sənəd üçtərəfli təmas qrupunun görüşündə imzalanıb. Minskdə ATƏT-i Xaydi Talyavini, Ukraynanı sabiq prezident Leonid Kuçma, Rusiyanı Ukraynadakı səfir Mixail Zurabov təmsil edir. Separatçılar adından tədbirə qondarma "DXR"-in "baş naziri" Aleksandr Zaxarçenko qatılıb.

# Mətanət Əzizovanın xəstə həyat yoldaşını niyə xaricə buraxmırlar?

## Ölkədən çıxışına qadağa qoyulan Eldar Əzizovun qaraciyər və ödündə ciddi xəstəlik aşkarlanıb

**Xəbər verildiyi kimi, hazırda Avropa ölkələrindən birində yaşayan Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizovanın həyat yoldaşı Eldar Əzizovun səhhətində ciddi problemlər yaranıb. Neftçilər Xəstəxanasında müayinədən keçən zaman onun qaraciyər və ödündə ciddi xəstəlik aşkar olunub. Yaxınları Eldar Əzizovun xəstəliyinin yalnız xaricdə müalicə olunmasını mümkün hesab edirlər. Əks təqdirdə, onun həyatının təhlükədə olduğunu bildirirlər. Amma iş ondadır ki, Mətanət Əzizova ölkəni tərk etdikdən sonra həyat yoldaşı Eldar Əzizov və oğlu Camalın ölkədən çıxışına qadağa qoyulub. Bu isə Eldar Əzizovun çətin olan vəziyyətini daha da ağırlaşdırır.**

Eldar Əzizovun qayınanası, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı kürəkəninin həyatına olan təhlükələrin günbəgün artdığını söylədi: "Günlər keçdikcə, səhhəti pisləşir. Başqa xəstəxanaya köçürülməlidir. Azərbaycanda onun xəstəliyinin müalicəsi çox bahadır. Ödündə daş var. Ciyəri də çox pis vəziyyətdədir. Ölkəmizdə bu xəstəliyin mütəxəssisi də yoxdur. Kürəkənimin qardaşı və anası da səhiyyənin bərbad vəziyyətdə olması nəticəsində vəfat ediblər. Bu baxımdan ölkə xəstəxanalarına etibar yoxdur. Hər bir insanın müalicəsi Azərbaycanda həm baha, həm də çətindir. Şifahi olaraq kürəkənimin xaricdə müalicəsi ilə bağlı rəsmi orqanlara müraciət etmişəm".

**Hüquqşünas Müzəffər Baxış hesab edir ki, xəstə bir insanın yaşadığı ölkədə müalicəsi mümkün deyilsə, onun barəsində ölkədən çıxış qadağası götürülə bilər:** "Onun haqqında cinayət işi açılıbsa, bu hal məhdudlaşdırıla bilər. Əgər xəstə bir insanın araşdırılan zaman müalicəsi Azərbaycan ərazisində mümkün deyilsə, əlbəttə, belə bir qərar qəbul edilməlidir ki, insan xaricdə müalicə ala bilsin. Amma birmənalı olaraq, demək olmaz ki, kiminsə həyatında ciddi problemlər yaranan zaman o, hökmən Azərbaycan ərazisini tərk etməlidir. Əsas odur ki, qərarı verən orqan məsələyə münasibət bildirsin. Əgər zəruri deyilsə, həmin qadağa götürülə və xəstə xaricdə müalicə ala bilər".

Məsələ ilə bağlı Baş Prokurorluğun mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı.

❑ Cavanşir ABBASLI

## Başsağlığı

**Müsavat Partiyasının başqanı İsa Qəmbər və partiyanın Divanı Şəmkir rayon təşkilatının sədri Nizami Əliyevin vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

# Tofiq Yaqublu Qubad İbadoğlunu dəstəklədi

**Müsavat Partiyası başqanının həbsdəki müavini Tofiq Yaqublu partiya sədrliyinə namizədlər arasından öz seçimini edib. Hazırda həbsdə olan T.Yaqublu vəkili vasitəsilə "Yeni Müsavat"a göndərdiyi köşədə açıq mətnlə Qubad İbadoğlunu dəstəklədiyini bəyan edib. T.Yaqublunun həmin köşəsini olduğu kimi təqdim edirik:**

## "...əgər biz nələrisə dəyişmək istəyiriksə, mütləq Qubad bəyin namizədliyi üstündə dayanmalıyıq"



## Ukraynaya fikir verin, bu ölkənin prezidenti kim oldu? Maydanda fiziki savaş verən Kliçkomu, yoxsa bütün dünyada ciddi iqtisadçı kimi tanınan Poroşenkomu?

**"Salam, hörmətli qurultay nümayəndələri!**

Əminəm ki, müəyyən edilmiş vaxtda qurultay keçiriləcək və müsavatçılar özlərinin növbəti başqanını seçəcəklər. Böyük ehtimalla qalan vaxt ərzində də hakimiyyət qurultayın baş tutmaması üçün xislətinə uyğun problemlər yaratmağa çalışacaq. Ona da əminəm ki, siz bu maneələri dəf etməyi bacaracaqsınız.

Mənim müraciətim başqanlığa namizədlərlə, daha çox da müdafiə etdiyim namizədlə bağlıdır. Buna keçməzdən əvvəl 1992-ci ildən bu yana Müsavat Partiyası başqanı postunu tutmuş, bu vəzifəni şərəflə, qeyrətlə və siyasətçilərə nümunə olacaq şəkildə yerinə yetirmiş İsa Qəmbərə dərin təşəkkürümü bildirirəm. Qəti qənaətim bundan ibarətdir ki, o, Məhəmməd Əmin Rəsulzadədən sonra partiyamızın ən uğurlu başqanı olub.

Məndə olan məlumata görə, başqanlıq postuna dörd iddiaçı var: Səxavət Əlisoy, Arif Hacılı, Tural Abbaslı və Qubad İbadoğlu. Onların hər biri başqanlıq postuna layiqdirlər və bunu keçdikləri şərəfli mübarizə yolu ilə sübut ediblər. Mənim düşüncəmə görə, əsas mübarizə Qubad İbadoğlu ilə Arif Hacılı arasında gedəcək və yəqin ki, siz artıq öz seçiminizi etmisiniz. Mən də öz seçimimi etmişəm, dəstəklədiyim namizəd Qubad İbadoğludur. Özüm də qurultay nümayəndəsiyəm, həbsdə olmağım səbəbindən sesvermədə iştirak edə bilmərəm, amma həbsim müdafiə etdiyim namizədin lehinə təbliğat aparmağa maneə ola bilməz və bu, qaydalara tam uyğundur. Deyə bilərsiniz bir halda ki, nümayəndələr artıq öz seçimlərini ediblər, onda təbliğatın əhəmiyyəti nədir? Axı mən müsavatçılara müraciət edirəm. Onlar beyinsiz, konyukturaya tabe olan, yuxarıdan gələn tapşırıq əsasında səs verən YAP tərəfdarlarından fərqli olaraq düşünməyi, arqumentləri dəyərləndirməyi və nəticədə düzgün qərar çıxarmağı bacarırlar.

Niyə Qubad bəyə üstünlük verdiyimi izah etmək üçün partiyamızın nizamnaməsindəki bir məqama diqqət çəkmək istəyirəm. Bir nəfərin iki dəfədən artıq başqan ola bilməməsi haqda müddəanı nəzərdə tuturam. Bu çox ciddi, vacib və ölkədə demokratik dəyərlərin daha da dərinləşməsinə xidmət edən müddəadır. Hamımıza aydındır ki, bu müddəa bizim nizamnaməmizə demokratik Qərbdə bir nəfərin iki dəfədən artıq ölkə başçısı seçilməsinə qoyulmuş qadağadan gəlib. Demokratik ölkələrin inkişaf təcrübələri sübut etdi ki, bu qadağa lazımlı və effektlidir. Elə biz özümüz də müxalifət olaraq ölkənin idarə olunmasında bu prinsipin pozulmasının inkişafımıza çox ciddi əngəl olduğu qənaətindəyik və bu bir acı həqiqətdir.

Arif Hacılı milli azadlıq hərəkatının, milli hakimiyyətin və 1993-cü ilin iyun qiyamından sonra başladılmış demokratiya uğrunda mübarizənin ən önəmli isimlərindəndir. Onun çağdaş Azərbaycan tarixində özünəməxsus yeri var. Eyni zamanda o, Müsavat Partiyasında əsas liderlərdən biridir. Bu bir faktdır ki, illər ərzində Müsavat Partiyasının qərarlarının qəbul edilməsində, siyasətinin müəyyənləşdirilməsində onun rolu İsa Qəmbərdən sonra ikinci olub. Bir çox hallarda İsa bəyin özünün də qərar və mövqeyinə həlledici təsir edib. Yəni Müsavat Partiyasının istər hakimiyyətə qarşı mübarizəyə, istərsə də müxalifət düşərgəsinə münasibətə görə qərarlaşdığı bugünkü mövqeyinin oluşmasında Arif Hacılının rolu nəinki yerdə qalan 3 namizədə, hətta yerdə qalan Divan üzvlərinə nisbətən çox olub. Sözsüz ki, Müsavat Partiyasının, eləcə də müxalifət düşərgəsinin indiki durumu qətiyyən ürəkaçan deyil və nikbinlik üçün heç bir əsas yaratmır. Əlbəttə ki, bunun daha çox obyektiv səbəbləri var, rejimin mahiyyətinə və hərəkətlərinə ötəri nəzər salmaq hər şeyi anladır. Ancaq vəziyyətimizin real şəraitdə ən optimal olduğunu da iddia edə bilmərik. Deməli, nələrisə yaxşı və ya fərqli etməliyik. Məsələn, mən bir şeyə qəti əminəm ki, reallıq və elementar məntiq müxalifətin bir-biri ilə savaşmasını yox, bir yerdə olmasını tələb edir. Bu, aksiomdur, ona görə də sübut etməyə çalışmayacam. Ona da qəti əminəm ki, müxalifətdaxili münasibətlərin iqtidara sərf edən gərginliyində, digərləri kimi bizim də günah payımız var. Arif Hacılının başqan seçilməsi o demək olar ki, əvvəlki xətt davam etdiriləcək, olsun ki, bir az da daha mühafizəkar formada.

Belə olduqda zəruri başqan dəyişikliyinin fəlsəfəsi pozulur. Bu normanın nizamnaməmizə hansı zərurətdən daxil edildiyini, demokratik ölkələrdə prezidentlərin iki dəfədən artıq seçilməsinə qadağanın niyə tətbiq edildiyini bir daha xatırlayın. Fikrimi obrazlı şəkildə izah etməyə çalışım. Riyaziyyatda toplananların yerini dəyişdikdə cəm dəyişmir, amma siyasətdə, idmanda, iqtisadiyyatda və s. dəyişir. Baxırsan ki, ulduzlardan ibarət futbol komandası məşhur bir məşqçinin rəhbərliyi altında uğur qazana bilmir. Rəhbərlik məşqçini dəyişdirəndən sonra təzə məşqçi *(olsun ki, o qədər də məşhur olmayan)* elə həmin oyunçularla qələbədən qələbəyə qoşur. Çünki təzə məşqçi yeni taktika seçir, meydançada oyunçuların yerini dəyişdirir, mövcud stereotipləri pozur və s. Bununla onu demək istəyirəm ki, əgər biz nələrisə dəyişmək istəyiriksə, mütləq Qubad bəyin namizədliyi üstündə dayanmalıyıq. Qubad İbadoğlu ölkənin ən savadlı və tanınmış iqtisadçısıdır. Onun rəhbərlik etdiyi QHT bütün dünyada tanınır və ciddi tərəfdaş kimi qəbul edilir. Onun təhlilləri və proqnozları Azərbaycana diqqət ayıran beynəlxalq iqtisadi-maliyyə mərkəzlərində diqqətə alınır. Onlara istinad edilir. O, bir iqtisadçı kimi yüksək elmi dərəcəyə malikdir, ingiliscə danışır, çox ciddi beynəlxalq təşkilatlarla və şəxslərlə yaxşı münasibətlərə malikdir. Qubad bəyin rəhbərlik etdiyi mütəxəssislər qrupu özünün sanballı araşdırmaları ilə iqtidarın yalançı iqtisadi göstəricilərini, saxta statistik məlumatlarını alt-üst edir, onun monopoliya və korrupsiya əməllərini ən mütərəqqi metodologiya əsasında təkzibedilməz faktlarla ifşa edir. Bu da öz növbəsində onun yüksək səviyyəli alim, bacarıqlı təşkilatçı və prinsipial müxalifətçi olduğunu ortaya qoyur. Belə isə ona niyə önəm verməməliyik? Ukraynaya fikir verin, bu ölkənin prezidenti kim oldu? Maydanda fiziki savaş verən Kliçkomu, yoxsa bütün dünyada ciddi iqtisadçı kimi tanınan Poroşenkomu? Yeri gəlmişkən, sizə bir detalı da xatırladım. Maydan hərəkatı zamanı rus kəşfiyyatı ABS diplomatlarının telefon danışıqlarını yaymışdılar. Onlar Kliçkonun prezidentlik perspektivliyi haqqında danışarkən demişdilər ki, o, iqtisadçı olmadığından bu post üçün yaramır. Bunu çağdaş dünyada iqtisadçılara necə önəm verildiyini xatırlatmaq üçün söylədim...

Sizə uğurlar arzulayıram!
Sizinlə fəxr edirəm!
Sizə güvənirəm!

❑

**Tofiq YAQUBLU**
**Şəki qazamatı 01.09.2014"**



# "Arif Hacılı İsa Qəmbər deyil. Amma ondan sonra ən yaxşısıdır"

## Elman Fəttah: "O, 25 illik azadlıq mübarizəsi ilə adını Azərbaycan tarixinə yazmış şəxslərdən biridir"



**Müsavatın ictimai-siyasi təşkilatlarla iş şöbəsinin müdiri, Qarabağ müharibəsi veteranı Elman Fəttah "mediaforum" saytına deyib ki, başqan seçkisində Mərkəzi İcra Aparatının rəhbəri, başqan müavini Arif Hacılının namizədliyini dəstəkləyir: "Müsavatçılar üçün başqanlığa namizədlər arasında seçim eləmək, ortaya mövqe qoymaq nə qədər çətin olsa da, vacibdir. Mütləq mövqe bildirməliyik. Bütün namizədlərə və onların tərəfdarlarına bu yarışda uğurlar arzulayıram. Mən də mövqeyimi müəyyənləşdirmişəm. Namizədim Arif Hacılıdır.**

Niyə Arif Hacılı? Ciddi əsaslarım var. Kim başqan olsun? Bu suala əksər müsavatçıların cavabı sadədir: İsa Qəmbər kimi intellektual olsun; İsa Qəmbər kimi cəsarətli olsun; İsa Qəmbər kimi ləyaqətli olsun.

Amma biz bu dəfə İsa Qəmbəri seçə bilmədiyimizə görə "İsa Qəmbər kimi olsun" düsturu işləmir. Elə bir şəxs yoxdur. Arif Hacılı İsa Qəmbər deyil. Amma ondan sonra ən yaxşısıdır.

Müsavatçıların "başqan belə olmalıdır" çərçivəsini xırdalasaq:

- Müsavatın başqanı intellektual olmalıdır. Partiya üzvlərinin və təəssübkeşlərinin əksəriyyəti intellektual insanlardır. Yeni başqan bu tələbə cavab verməlidir.

- Yeni başqan cəsarətli olmalıdır. Müsavat Partiyasının siyasi xəttinin yeridilməsində ardıcıllıq, prinsipiallıq və qətiyyət əsas və mütləq şərtdir.

- Ləyaqətli olmalıdır *(mənim üçün hər bir müsavatçı ləyaqətlidir).* Ləyaqət Müsavat Partiyasının təməl prinsipidir.

Mənə görə, Müsavat başqanı bu üç keyfiyyətin üçünü də daşıyan, intellektin, cəsarətin və ləyaqətin harmoniyasına cavab verən şəxs olmalıdır. Arif Hacılı həmin keyfiyyətləri özündə daşıyan peşəkar siyasətçidir.

Arif Hacılı 25 illik azadlıq mübarizəsi ilə adını Azərbaycan tarixinə yazmış şəxslərdən biridir. Onun intellektini çıxışlarından, müsahibələrindən, cəsarətini uzun illərdir fasiləsiz davam edən qətiyyətli, sistemli, ardıcıl və prinsipial mübarizəsindən görürük. Görməmək mümkün deyil. Azərbaycanın son 25 illik tarixində sovet rejiminə və Əliyevlər hakimiyyətinə qarşı aparılan elə bir siyasi hadisə yoxdur ki, Arif Hacılı onun mərkəzində olmasın.

Nəhayət, "kim başqan olsun?" məsələsi etibar, güvən məsələsidir. Arif Hacılıya güvənim tamdır. Könül rahatlığı ilə Arif bəyin başqanlığa namizədliyini dəstəkləyirəm.

Amma ən şanslı namizəd qurultayda qalib gələn namizəddir. Ən ləyaqətli namizəd Müsavatın qalib gəlməsinə çalışan və demokratik nəticələri qəbul edib Müsavatda fəaliyyətini davam etdirəndir".

Arif Hacılı 1962-ci ildə Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Azərbaycan xalq hərəkatının öncül şəxslərindən biridir. 1991-1992-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Ali Məclisinin sədri, 1990-1995-ci illərdə parlamentin deputatı olub. Əbülfəz Elçibəyin prezidentliyi dövründə dövlət müşaviri postu tutub.

1992-ci ildən Müsavat Partiyasının üzvüdür. 2003-2005 və 2011-2012-ci illərdə həbsdə olub.

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

## İşdən çıxarılan gömrükçü sabunla narkotiki ayırd edə bilməyibmiş!!!

# 3 ton maye heroin qaçaqmalçılığı haqda yeni şok xəbərlər

### "Yük" Azərbaycan ərazisində daxil olandan sonra onu müşayiət edən avtomobillər müəyyənləşdirilərək kimlərə məxsus olduğu aydınlaşdırılıb, kamera görüntüləri sayəsində bir neçə nəfər həbs edilib; Gömrük-keçid məntəqələrində yeni qaydalar tətbiq edilir



**İyulun 11-də Gürcüstan Daxili İşlər Nazirliyi (DİN) Əfqanıstanda hazırlanan 2 ton 790 kiloqram yüksək keyfiyyətli maye heroinin ölkə ərazisində saxlanması ilə bağlı yeni məlumatlar yayılıb. Xatırladaq ki, Gürcüstan DİN-in yaydığı rəsmi məlumatda maye heroinin maye halında olan sabun adı altında 30 litrlik 93 çəlləkdə daşındığı bildirilirdi. Qeyd olunurdu ki, əməliyyat zamanı 2 Gürcüstan və 1 Türkiyə vətəndaşı saxlanıb. Sonrakı məlumatlarda yükün son çatdırılma nöqtəsi kimi Moldova göstərilirdi.**

Bu günə qədər yükün Azərbaycan ərazisinə necə daxil olması haqda rəsmi məlumat yoxdur. Qeyri-rəsmi məlumatlara görə, 3 tona yaxın heroin olan yük maşını Astara Gömrük-Keçid Məntəqəsindən ölkəyə daxil olub və 500 kilometrlik yolu qət etməklə Qazaxdakı gömrük-keçid məntəqəsindən çıxmaqla sərhədlərimizi aşıb.

Gürcüstan DİN-in keçirdiyi məlum əməliyyatdan 2 aya yaxın müddət ötür. Lakin rəsmi qurumlar ictimaiyyətə sərhədlərimizi asanlıqla aşan beynəlxalq narkomafiyanın bəd əməlinin hansı şəraitdə baş tutması haqda məlumat verməyə tələsmirlər. Avqustun 29-da "Yeni Müsavat"a Astaradan belə bir məlumat daxil olmuşdu ki, məlum əməliyyatdan sonra Astara Gömrük-Keçid Məntəqəsinin qaçaqmalçılıq şöbəsində çalışan 4 məmur işdən çıxarılıb. Gömrükçülər Azərbaycandan keçən və Gürcüstanda tutulan 3 ton heroin əməliyyatına görə vəzifədən kənarlaşdırılıblar. Qaynağımız iddia etmişdi ki, işdən qovulan gömrükçülərdən biri Astara sakinidir, digərləri isə başqa bölgələrdəndir. Onların adları açıqlanmasa da, mənbənin sözlərinə görə, işdən çıxarılan gömrükçülər məhz Gürcüstanda saxlanılan 3 ton heri-on, ardınca da "Qırmızı körpü" sərhəd-keçid məntəqəsində saxlanılan 60 kiloqram heroin əməliyyatlarının qurbanı olublar.

**Qaynağımız iddia edirdi ki, gömrükçülər məsuliyyətsizlikdə təqsirli bilinərək gömrük sistemindən kənarlaşdırılıblar:** "Bu əməliyyatı ört-basdır etmək üçün Astara gömrüyü "günah keçi"si axtarıb və tapıb. Gürcüstanda saxlanılan 3 ton heroinin məhz bu məntəqədən Azərbaycana keçməsi barədə məlumatlar var. Gürcüstandakı əməliyyat ictimailəşəndən sonra Astara gömrüyünə qarşı yuxarı dairələrdən ciddi təzyiq olub, gömrük rəisi Hikmət Məmmədovdan haqq-hesab sorulub, bu işin necə baş verməsinin izahatı tələb edilib.

Gömrük rəisi də təcili Astara gömrüyündə araşdırmalara başlayıb, 3 ton heroinin keçməsində müqəssirlər ortaya çıxarılıb. Nəticədə 4 gömrükçü işindən uzaqlaşdırılıb. Amma bu, elə böyük miqyaslı işdir ki, 4 gömrükçünün səlahiyyətləri çərçivəsinə sığmır. Onları işdən "gözə kül üfürmək" üçün uzaqlaşdırıblar".

"Yeni Müsavat"a daxil olan ən son məlumatlara görə, həmin maye heroin əslində Azərbaycan gömrükçüləri tərəfindən saxlanılıb. Hətta işdən qovulan gömrükçülərdən birinin həmin yükə şəxsən baxış keçirməsi xəbəri də var. O, çəlləklərdən bir neçəsinin içinə baxış da keçirib. Xüsusi alət vasitəsilə maye dolu çəlləklərin içində digər əşyaların olub-olmamasını müəyyən edib. Əli ilə mayenin sabun olub-olmamasını da yoxlayıb. Lakin çəlləklərdəki mayelərin heroin olmasını ağlına belə gətirməyib.

Qaynağımız deyib ki, bu olayın üstü açılandan sonra gömrük-keçid məntəqələrində xüsusi yoxlama avadanlıqlarının yenilənməsi və mümkün olan bütün mal-materialların tərkibinin müəyyən olunmasına göstəriş verilib. Gömrükçülərə tranzitlə ölkəmizdən keçən malların yoxlanılması zamanı xüsusilə diqqətli olmaq tapşırılıb. Hər bir yoxlamanın lentə alınması üçün gömrükçülərə kameralar paylanıb. Onlara bütün yoxlamaları əvvəldən axıra qədər kameraya çəkilməsi və aktlaşdırılması tapşırılıb.

Qeyd edək ki, 3 ton heroinin tutulması əməliyyatını ABŞ kəşfiyyatının Gürcüstan hüquq-mühafizə orqanları ilə birgə həyata keçirdiyi bildirilirdi. İddia olunurdu ki, heroinin Azərbaycan ərazisində hərəkəti, o cümlədən məxfi bir yerdə saflaşdırılması əməliyyatı ABŞ kəşfiyyatı tərəfindən lentə də alınıb.

Aldığımız son məlumatlarla azpolitika.info-nun bir qədər əvvəl yaydığı məlumatlar üst-üstə düşür. Sayt bir qədər əvvəl 3 ton heroinin Azərbaycan ərazisinə necə daxil olması və çıxarılması ilə bağlı çox ciddi istintaq başlaması xəbərini yaymışdı. Həmin xəbərdə qeyd edilirdi ki, onlarla adam istintaqa cəlb olunub, xeyli saxlanılanlar var. Yollarda quraşdırılmış müşahidə kameralarının incələnməsindən sonra "yük" Azərbaycan ərazisinə daxil olandan sonra onu müşayiət edən avtomobillər müəyyənləşdirilərək kimlərə məxsus olduğu aydınlaşdırılıb, kamera görüntüləri sayəsində içindəki şəxslər saxlanılıb. Bundan başqa, telefon siqnalları və danışıqların təhlili də ciddi ipucları verib. Gömrük sənədlərinin araşdırılması zamanı məlum olub ki, yükün ümumi dəyəri cəmi 5 min dollar göstərilib, lakin qəribədir ki, 5 min dollarlıq "mal"a görə 8 min dollar "rüsum" alınıb. İstintaq qrupu üzvlərinin, eyni zamanda Gömrük Komitəsinin rəhbər şəxslərinin bu işlə bağlı Gürcüstanda ezamiyyətdə olduqları da bizə verilən məlumatlar sırasındadır.

Aldığımız son məlumatlara Dövlət Gömrük Komitəsinin münasibətini öyrənə bilmədik. Bununla belə, məsələ ilə bağlı DGK da daxil olmaqla, hər bir məsul dövlət qurumunun münasibətini dərc etməyə hazırıq.

❑ E.MƏMMƏDƏLİYEV

# "Məni söyənləri bağışlayıram, qoy danışsınlar..."

### Hikmət Hacızadə ittihamlara belə cavab verdi

**Müsavat Partiyasında başlanan seçki kampaniyası iddiaçıların tərəfdarlarının arasında gərgin mübarizə ilə müşahidə olunmaqdadır. Təkcə iddiaçılara qarşı deyil, onların müdafiəçilərinə qarşı da ittihamlar bir-birini əvəz edir. Qubad İbadoğlunu müdafiə edən Hikmət Hacızadəyə qarşı xüsusilə hücumlar müşahidə edilir. Başqanlığa əsas iddiaçı Arif Hacılını və Tural Abbaslını müdafiə edən gənc müsavatçılar sosial şəbəkələrdə Hikmət Hacızadəni və Qubad İbadoğlunu qorxaq, mitinqlərdə iştirak etməyən kabinet siyasətçiləri kimi xarakterizə edirlər. Vəziyyət o həddə çatıb ki, Qubad İbadoğlu özünün mitinqlərdə iştirak etdiyini sübut etmək üçün facebook səhifəsində cavab yazıb, eyni zamanda bir neçə fotoşəkili sübut olaraq göstərib.**



**Q.İbadoğlu** bəzi şəxslərin ona qarşı mitinqlərdə iştirak etməməsini irad tutmasını belə cavablandırıb: "Bəzi dostlarımız mənə irad tuturlar ki, mən mitinqlərdə iştirak etməmişəm. Mitinq adamı deyiləm. Onların düşüncəsi ilə mənim yanaşmam arasındakı fərq ondan ibarətdir ki, mən mitinqlərə, piketlərə, yürüşlərə mübarizəmizin hədəfi kimi deyil, mübarizədə bir vasitə kimi baxıram. Mən hesab edirəm ki, bu vasitələrdən siyasi şəraitdən asılı olaraq istifadə olunmalıdır. Ondan harda gəldi istifadə etmək və ya bütünlüklə imtina etmək olmaz. Lakin siyasi mübarizədə mitinqi və bu kimi etiraz aksiyalarını son hədəf kimi qoymaq da düzgün yanaşma deyil".

**Hikmət Hacızadə isə ittihamlara qarşı adekvat cavab vermək istəmir. "Yeni Müsavat"a açıqlamasında Hikmət Hacızadə bildirdi ki, seçki çox gərgin və emosional məsələdir. Ona görə də seçki kampaniyasında emosional çıxışlar, ittihamlar olur:** "Bunlar mümkündür və mənə qarşı fikirlər işlədənləri bağışlayıram. Elə biz illər boyu ona görə vuruşurduq ki, hər kəs istədiyi fikri ifadə etsin, kimin ağzına nə gəlir danışsın. Bunları mən qəbul edirəm. İkincisi, qoy o ittihamları yağdıranlar unutmasınlar ki, əgər Qubad İbadoğlu və onun yanındakılar seçkiyə qoşulmasaydılar, onda seçki olmazdı, təyinat olardı. İndi isə Müsavat Partiyasında seçki kampaniyası ilə bütün cəmiyyət maraqlanır. Təyinatla seçki arasında fərqi biz elədik. Məni söyənləri bağışlayıram, qoy danışsınlar. Belə şeylər seçkilərdə həmişə olur".

**H.Hacızadə onu da bəyan etdi ki, demokratik seçkilərin nəticələrini kimin qalib gəlməsindən asılı olmayaraq qəbul edəcək:** "Müdafiə elədiyim namizəd qalib gəlməsə belə, qalib gələni təbrik edəcəyəm. Vaxtilə mən ilkin seçki keçirdiyimiz zaman "Mən uduzsam küsməyəcəyəm" şüarını irəli sürmüşdüm. Budur həqiqi müsavatçının şüarı. Yenə də o mövqedəyəm ki, uduzsam küsməyəcəyəm, partiyamızda qalacağam, yeni seçilmiş başqanla işləyəcəyəm. Bizim məqsədimiz həqiqi seçki keçirməkdir, təyinat yox, real seçki keçirməkdir. Ona görə də bu çətinlikləri mən dəfələrlə görmüşəm, özüm bu seçkiləri planlaşdırmışam. O uşaqlardan incimirəm, qoy ağızlarına gələni danışsınlar".

❑ Etibar SEYİDAĞA



## Həbsdəki baş redaktorun cəzası artırılıb

**Sentyabrın 5-i Sabunçu Rayon Məhkəməsində "Azadxeber.az" saytının baş redaktoru Nicat Əliyevin məhkəməsi olub. "Azadxeber.az"ın məlumatına görə, hakim Anar Qasımovun sədrliyi keçirilən prosesdə dustağın cəza müddətinin daha iki ay artırılması haqqında qərar verilib. Nicat Əliyevin kamerasından mobil telefon tapıldığından cəza müddəti 10 ildən 10 il 2 aya qədər uzadılıb.**

Nicat Əliyev Bakı Ağır Cinayətlər Məhkəməsinin 9 dekabr 2013-cü il hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilib. O, narkotik vasitə saxlama; müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materialları yayma; hakimiyyətin zorla ələ keçirilməsinə, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar; milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması kimi hərəkətlərdə təqsirli bilinib.

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

**Sentyabrın 5-də ölkənin aparıcı qəzetlərinin və digər media qurumlarının iştirakı ilə Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycanda informasiya təhlükəsizliyi məsələləri media müstəvisində" adlı konfrans keçirildi. Mətbuat Şurasının (MŞ) təşəbbüsü ilə baş tutan tədbirdə ilk çıxış edən MŞ sədri Əflatun Amaşov bildirdi ki, konfrans informasiya təhlükəsizliyi məsələsinə həsr olunsa da, daha çox müharibə, hərbi əməliyyatlarla bağlı xəbərlərin işıqlandırılması probleminə yer ayrılacaq.**



# Media kapitanları informasiya təhlükəsizliyi məsələsini müzakirə etdilər

## "KİV haqqında" Qanunun dəyişdirilməsi və ya ona əlavə-dəyişikliklər edilməsi, media siyasətini təkmilləşdirmək təklifləri səsləndirildi...



Onun sözlərinə görə, tədbirdə məqsəd bir neçə gün əvvəl Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və KİV rəhbərlərinin iştirakı ilə keçirilmiş müşavirədə səslənən məsələlərlə bağlı fikir mübadiləsi aparmaqdan ibarətdir.

Ə.Amaşov bir müddət əvvəl cəbhə xəttində başlanan hərbi əməliyyatlar zamanı doğru olmayan, dəqiqləşdirilməmiş xəbərlər yayan bir neçə mətbuat orqanının da adını açıqladı. Qeyd elədi ki, MŞ Müdafiə Nazirliyi ilə danışıqlar aparır və cəbhə xəttindən yazacaq jurnalistlər müəyyənləşdiriləcək.

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə bildirdi ki, müharibə xəbərlərini yazarkən tələskənliyə yol verməк olmaz:** "Tutaq ki, tanklar harasa aparılır, hansısa postda vəziyyət gərgindir, bunu niyə dərhal yazırsan? Ermənіyə xəbər verirsən? Birinci xəbər verməк müharibə dövrü üçün qeyri-peşəkarlıqdır. Ən əvvəl dövlətimizin marağını düşünməliyik".

**"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə media qurumlarının məsuliyyət məsələsini qabartdı:** "Mənbəsi göstərilməyən, mənbəyə söykənməyən xəbərlərin yayılmasının məsuliyyəti olmalıdır. Hansısa elektron sayt xəbəri tirajlayıbsa, digəri bu xəbərdən istifadə edirsə, buna görə də məsuliyyət olmalıdır. Elektron KİV sürətlə inkişaf etdiyindən "KİV haqqında" Qanuna yenə əlavə və dəyişikliklər olmalıdır".

**KİV-ə Dəstək Fondunun rəhbəri Vüqar Səfərli də elektron mediadan narahatlığını bildirdi:** "Əksər kiçik saytları araşdıranda Amerikaya, İngiltərəyə gedib çıxır və məlum olmur ki, kimdir rəhbərliyi. O tanınmayan saytların tirajladığı xəbərlər də digər tanınan saytlarda verilir. Elektron KİV-lərin qeydiyyat məsələsinə baxılmalıdır. Həmin yalan məlumatları yayanlar qeyri-peşəkarlar deyil, onlar peşəkardırlar və xəbərləri bilərəkdən yayırlar. Onlar Azərbaycan xalqının düşmənləridir".

**Deputat Musa Qasımlı isə qeyd etdi ki, mətbuat istənilən toplumu istənilən şəklə sala bilər. O, müharibə xəbərlərindən narahat olduğunu vurğuladı:** "Hər iki ailədən birində uşaq əsgərlikdədir. Hərbi əməliyyatlar zamanı mətbuatda bir neçə əsgərin öldüyü açıqlanmışdı, ancaq adlar yox idi. Azərbaycan cəmiyyətini təlaşda saxlamaq məsuliyyətini üzərinizə götürürsünüz? Bu məsuliyyəti necə daşıya bilərsiniz? Mətbuatın azad olması hər şey deməк deyil. Bu cür işlər dövlətin əsaslarının sarsıdılmasıdır".

**"APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı isə bildirdi ki, "KİV haqqında" Qanuna dəyişiklik etmək lazımdır:** "Bu, mütləqdir. Agentliklərin qeydiyyatı daha da sərtləşdirilməlidir. Bundan sonra isə "KİV haqqında" Qanunda istinadın məsuliyyətdən azad edildiyi hallarda dəyişiklik olunmalıdır. İstənilən KİV əgər qeydiyyatdan agentlik kimi keçmiş media orqanına istinad edəcəksə, bu, onu məsuliyyətdən azad edə bilər. Çünki son proseslər zamanı biz gördük ki, 5-10 gün əvvəl yaranmış saytlar dezinformasiya yaydılar, tirajlı, cəmiyyətdə tanınan saytlar da onlara istinadla dezinformasiyaları tirajladılar. Əslində xaos burdan başladı". V.Mahirqızının sözlərinə görə, ixtisaslı və peşəkar hərbi jurnalist kateqoriyasının formalaşmasının vaxtı çatıb.

**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu müzakirə olunan mövzunun onu da narahat etdiyini söylədi:** "Şayiə və dezinformasiya yazan mətbuat rəhbərləri öz məsuliyyətlərini dərk etməli və işlərinə yenidən baxmalıdır. Lakin bu prosesdə hər şeyi mətbuatın, saytların üzərinə yükləmək doğru deyil. Dövlət qurumlarının mətbuat xidmətlərinin rəhbərləri də məsuliyyət daşıyırlar. Onlar informasiya boşluğu buraxırlar, ona görə də konkret situasiyalarda o boşluğu şayiələr və dezinformasiyalar doldurur. Üç günlük müharibə dövründə baş verənlər bir test idi. Biz imkan qazandıq, öyrəndik ki, informasiya potensialımız necədir, fövqəladə vəziyyətdə necə işləyə bilərik? İndi bu nəticələrdən çıxış edib, gələcəkdə bu neqativlərin təkrar olmaması üçün çalışmalıyıq". **Baş redaktor həmçinin cəza çağırışlarının əleyhinə olduğunu vurğuladı:** "Bu, bizi dünya çapında hədəfə çıxaran bir prosesdir". **R.Arifoğlu operativliyi təmin etmək və dezinformasiyaların qarşısını ala biləcək komissiyanın, Mətbuat Şurası nəzdində informasiya mərkəzinin qurulmasını da təklif etdi:** "Təklifim ondan ibarətdir ki, Mətbuat Şurasında təcrübəli redaktorlardan ibarət operativ qərargah yaradılsın. Xüsusilə hərbi və fövqəladə vəziyyətlər olanda həmin qərargah dərhal işə başlasın və medianın normal, dəqiq və operativ xəbərlə təmin olunmasına yardım göstərsin".

**R.Arifoğlu dedi ki, yerli media da dövlətin, millətin resursudur:** "Müharibə vəziyyətində əsgər, xalq nədirsə, haradadırsa, yerli media da orada olmalıdır. Azərbaycanın media resursları ermənilərdən çoxdur, əhatəli və güclüdür. Buyursun, dövlət bir proqram yaratsın, savaş və fövqəladə hallarda bizdən də tam istifadə etsin. Öncə vətənin, millətin maraqları gəlir, sonra xəbərin marağı..."

**Mətbuat Şurasının üzvü Azər Həsrət** isə diqqətə çatdırdı ki, dünya təcrübəsinə əsaslanıb bu prosesi idarə etmək, tənzimləmək olar. O, dünya təcrübəsindən, hərbi vəziyyətlərdə dünyanın başqa ölkələrindəki media qurumlarının iş prinsipindən misallar gətirdi.

**Media kapitanı Aynur Camalqızı saytların və portalların qeydiyyat prosedurunun sərtləşdirilməli olduğuna diqqət yönəltdi. Jurnalist Xaqani Səfəroğlu isə bildirdi ki, "KİV haqqında" Qanuna dəyişiklik olmalıdır:** "Həmçinin informasiya təhlükəsizliyi haqqında qanun qəbul olunmalıdır. Bu qanun dövlət strukturlarının üzərinə də məsuliyyət qoyur. Belə bir qanun olacağı təqdirdə dövlət strukturu öz işində dəyişiklik etməli olacaq. Həmçinin dövlət qurumlarının mətbuat xidmətləri strukturu tamamilə dəyişdirilməlidir. Bu struktur köhnəlib".

**Müzakirələri yekunlaşdıran Əflatun Amaşov səsləndirilən təkliflərin ümumiləşdiriləcəyini və yenidən nəzərdən keçiriləcəyini qeyd etdi.**

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**



# Əli Kərimli və onun macəraçı-avantürist dəstəsi bizdən nə istəyir...

**Azər AYXAN**

**Azərbaycan siyasətinin xəstə "uşaqları" hələ də Ramiz Mehdiyevin KİV rəhbərləri ilə keçirdiyi müşavirəni ələşdirir. Bunlar belədirlər: illərlə bir mövzuya, bir adama taxılırlar, yanlarından zaman ötüb keçir, fəsillər dəyişir, iqtidarlar gəlir gedir, dünya, onun xəritəsi yenilənir, müharibələr başlayıb-bitir, daşqınlar, sellər olur, bunlar taxıldıqları o mövzulardan qopa bilmirlər. Yaşlarının üstünə yaş gəlməsi də köməklərinə çatmır.**

***

Neçə gündür bu macəraçı-avantürist dəstəsi bizə sataşmaqla məşğuldur qəzetlərində. Düzdür, adımızı çəkmirlər, amma çəksələr ondan yaxşıdır. Öz aləmlərində adımızı çəkmədən bizi ictimai qınaq hədəfinə çıxarırlar. Ötən dəfədən dərslərini elə vermişik ki, əslində adlı tənqidə cürət etmirlər. Amma bu dəstənin mahiyyətinə yaxşı bələdik; sussaq, cavablarını vaxtında verməsək üstümüzə gələcəklər. Sonra da... Sonra zatən hamıya bəlli. İllərdi bu cür davam edir - Əli Kərimli və onun qaragüruh dəstəsi, zombiləşmiş tərəfdarları barəmizdə ağızlarına gələni yazırlar, deyirlər. Dinmirik, cavab vermirik ki, bəlkə yorulub bu qara PR-dan əl çəkələr. Görəndəki yox, sərhədi çox keçdilər, özlərinə layiq formada ağızlarının payını alırlar və bir neçə ay susurlar.

İndi yenə başlayıblar. Qaşınırlar. Nolar. Qaşıyaq...

Əli Kərimli iki gün öncə facebook səhifəsində R.Mehdiyevin yanında keçirilən müşavirə ilə bağlı yazı paylaşıb. İstifadəsindəki qəzet də o statusu tirajlayıb. Adam bizə xeyli söz atıb o yazısında, anadolular demiş, laf soxub. Sitat-falan verməyəcəm, tanış olanlar bilir söhbət hansı məqamlardan gedir.

Ə.Kərimli, həmçinin dəstəsinin üzvləri bizə irad da tuturlar ki, bəs, bəzi baş redaktorlar niyə o müşavirəyə qatılmışdılar. Ötən ilin noyabrında prezidentlə redaktorların tədbirində iştirakımızı az qala vətənə xəyanət kimi təqdim edənlər indi yenə də eyni dəst-xətti seçməkdədirlər. Bizə prezidentlə, digər dövlət məmurları ilə görüşməyi, onların tədbirlərinə qatılmağı o adamlar irad tutur ki, özləri Amerikanın, Avropanın media, demokratiya layihələri adı ilə kamuflyaj olmuş kəşfiyyat şəbəkələrinin qarşısında müntəzir dayanır, onlardan əmr, göstəriş, təlimat, hətta pul alırlar. Amma bizim dövlətlə, onun hər hansı təmsilçisi ilə açıq, şəffaf görüşümüzü xəyanət kimi təqdim edirlər.

***

Bu adamlar yadımıza 21 il öncəni salırlar. 1993-cü ilin iyununda adına qiyam deyib şişirtdikləri teatrın ilk səhnəsi oynanıb başa çatmamış panik şəkildə iqtidardakı vəzifələrindən istefa verdilər. Əli Kərimli o zaman dövlət katibi postunu tuturdu. Adam postunu qoyub gizli şəkildə Bakını tərk etdi. Xeyli Kələkidə və başqa yerlərdə gizləndi, baş girlədi. Ondan sonra həmin vəzifəni qısa müddətdə Lalə Şövkət tutsa da sonradan dövlət katibi vəzifəsinin səlahiyyəti və adı dəyişdirildi. Ramiz Mehdiyev gətirildi o məqama. Öz dövləti postunu Ramiz Mehdiyevə təhvil verib gizli şəkildə paytaxtdan qaçan adam bizi R.Mehdiyevlə görüşə qatılmaqda suçlayır.

Beləlelərinin ətrafındakıların əksəriyyətinin yaşı imkan verməz o günləri xatırlamağa. Amma 1993-cü ilin yayı bizim gözlərimiz önündə keçib. Tarixdə dərin iz buraxmış biabırçılıqlara, fərariliyə imza atanlar, o səhnələrin baş rol ifaçıları qəhrəmanlıqdan, prinsipiallıqdan dəm vururlar. Əli Kərimli o zaman hardaydı ki, onun partiyasında bir adam tapılmırdı ki, təşkilata rəhbərlik etsin. Rəhmətlik Elçibəy Kələkidən Bakıya, İsa Qəmbərə məktub yazıb xahiş etdi ki, öz müavinlərindən birini müvəqqəti olaraq AXC-yə yolla, partiyaya rəhbərlik etməyə kimsə yoxdur. Yaxşı, Elçibəyi başa düşdük, Surət Hüseynov onu öldürüb ölkədə vətəndaş qarşıdurması yaratmaq istəyirdi *(baxmayaraq ki, bu versiya heç vaxt mənə inandırıcı görünməyib)*, bəs siz kimdən, nədən qorxub Kələkiyə sığınmışdınız? Aylarla, bəziləriniz illərlə tərəfdarlarınızı, partiyadaşlarınızı repressiyaların hədəfində buraxıb baş girlədiniz orda-burda. Bakıya qayıtdıqdan sonra da ilk işiniz hakimiyyətlə gizli danışıqlara gedib müxalifət daxilində separatçılıq etmək oldu.

Bu işlərin müəllifləri bizə əxlaq, prinsipiallıq və müxalifətçilik dərsi keçir. Gərək zamanında xalqı, dövləti, tərəfdarlarını qoyub qaçanları Bakıya və siyasətə buraxmayaydıq. Onlar da indi bizim üstümüzə-üstümüzə gəlib ağızlarına gələni danışmaz, yazmazdılar.

***

İqtidarı YAP-çılara təslim edənlər bunun faturasını, çəkini bizə kəsir, ödətməyə çalışır. Heydər Əliyevi az qala yalvararaq iqtidara dəvət etdilər, sonra da başladılar jurnalistləri suçlamağa ki, niyə onu möhkəm tənqid etmirsiniz. Niyə onun adının qarşısına prezident yazırsız.

***

"Azərbaycanda repressiya tüğyan edir, demokratiya boğulur" deyən müxalifət lideri niyə bu duruma qarşı etiraz aksiyaları keçirmir? Əli Kərimli bu saat meydanlarda olmalıdır, başının dəstəsi ilə etiraz aksiyalarında baş yardırmalıdır. Amma adam "klaviatura qəhrəmanlığı" ilə məşğuldur. Facebookda bizə dərs keçməyə başlayıb, mübarizə aparmaqla bağlı statuslar yazır. Necə bir vaxtlar Kələkidə, orda-burda gizlənirdi, indi də kompüter arxasında gizlənir.

***

Xalqın gözündə statusu olmayanlar gündə yüz facebook statusu yazsalar da xeyri yoxdur. Heç bizim üçün də bu adamların varlığı ilə yoxluğunun bir önəmi qalmayıb artıq. Sadəcə, bəzən adam milçəköldürən kimi tərif olunan məişət alətinə əl atmaq məcburiyyətində qalır...



# Susub... yaşamaq

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**İndi toyda-yasda, xeyirdə-şərdə sinəndə düyünlənən ağrını açıb-töksən, vergi məmurunun tamahının baş yardığını dilə gətirsən, bir nadan həkimin xəstəni ölümcül vəziyyətə salmağından gileylənsən, polisin dəyənəklə qanun yazdığını dilə gətirsən sonda bir "ağsaqqalın" qınağına tuş gələcəksən: "Əşşi belə sözlərin heç yeridirmi? Başını aşağı sal, bir tikə çörəyini qazan - canı salamat, qulağı dinc yaşa!" Bundan sonra dili gileyli adam bir az pərt olsa da, məsləhətə əməl edir, dərd ortağı tapmadığından susur.**

Bu gün ortaq mentalitetimiz üçün ən xarakterik əlamət də elə budur. Öz dövlətimiz olandan, öz əlimiz öz başımıza sığal çəkəndən bəri qazancımız da elə susub, yaşamaq olub...

Əslində isə cəza növbəsinə düzülürük. Bu gün sənə susmağı yaşamağın yeganə yolu kimi nişan verən kəsə də cəza növbəsi çatanda eyni aqibətlə üz-üzə qalır... Bütün ölkə beləcə növbəyə düzülüb, adi adamlar nə qazanacağını bilməsə də, şərə-böhtana hədəf olacağından bir zərrə də sığortalanmadığına əmindir...

Dövlətin iqtisadi, siyasi idarəçilik formatı bir qrup insan tərəfindən dəyişdirilə bilər, amma insanların psixologiyası, yeni dəyərlərə uyğunlaşması ağrı-acı dolu bir prosesə dönür... Qanunları bilməyən, öz haqqını tələb etməyən insan mütləq dolayı bir yol arayır. Rüşvətlə iş aşırmağı daha ağrısız, daha sərfəli sayır...

Rüşvət alan məmur, onun qamarladığı haram da bizim öz haqqımız dərk etməməyimizin dəyəridir... Demirəm ki, aşağıdan müqavimətlə ölkəni bürüyən korrupsiyanı aradan qaldırmaq olar. O, artıq bu ölkədə ən işlək şəbəkəyə dönüb. Amma aşağıdan rüşvətə olan müqavimət, istər-istəməz, rüşvət alan üçün bölücü bir meyara dönəcək... Pul qarşılığında iş görən məmuru özümüz hədyanlıq həddində qərarlaşdırmışıq. Geri çəkildiyimiz qədər, o tamah qılıncını sıyırıb üstümüzə yeriyir...

İndi ortaq azərbaycanlı mentaliteti üçün ən xarakterik əlamət susmaqdır... Əslində, bu təkcə taleyüklü məsələlərdən yaxanı qırağa çəkmək deyil. Həm də səmt küləyinin onu hansı istiqamətə aparacağı ilə barışmaqdır. Axı kimə bəlli deyil ki, bu dünyada öz haqqına qovuşan xalqlar küləyə qarşı gediblər... Bu iradəyə malik olmayan toplumlar isə tarixin faciələr dolu səhifələrini yazıblar...

Diqqət yetiribsinizmi, ölkəni bürüyən total rüşvətin, korrupsiyanın yaşam normasına çevrilməyində Dağlıq Qarabağ məsələsi bir alət oldu. Ölkənin bütün maddi resurslarını talayanlar buna etiraz edənləri müharibə vəziyyətində olmağımızla təhdid etdilər. Bu faciənin kölgəsində daldalananlar bizi vətənpərvər olmamaqda qınadıqları qədər, bu ölkənin sərvətlərini talamaqda özlərini haqlı bildilər...

Azərbaycanın az-çox səfalı yerlərinə ayaq basanda bir cəhətə diqqət yetirin: kasıblaşan, miskin həyat sürən insanlara gözdağı kimi Azərbaycan məmurları möhtəşəm saraylar ucaldıblar. Çox vaxt heç onu tikdirən məmurların o sarayların qapısını açmağa vaxtı, həvəsi də olmur... Amma niyə insanların bu qədər kasıb yaşadığının təsdiqi kimi o saraylar qalır...

Gün kimi hamıya bəlli olan meyarlar formalaşıb: bir qayda olaraq böyük korrupsiya cəzasız qalır, cəza mexanizmi kiçik məbləğli rüşvətə qarşı yönələndə isə, məlum olur ki, məqsəd gəlir gətirən sahələri inhisara almaqdır... Total şəkildə xırda sahibkarlar bununla barışıblar. Təhlükəsiz para qazanmağın yeganə yolu toxunulmaz oliqarxlara qısılmaqdır. Təbii ki, öz qazancını onlarla bölmək şərti ilə...

Bütün bunları hamı görür. Rüşvət almaq, yalan demək, yaltaqlanmaq normaya döndükcə adi adamlar qarşısında bütün bunları görüb susmaq tələbi qoyulur... Susmayanı cəzalandırmaq üçün isə o qədər vasitələr işə salırlar ki!

Gürcüstanda korrupsiyaya qənim kəsilən, bu ölkəni tamah girdabından qurtaran keçmiş prezident Mixail Saakaşviliyə qarşı ittiham irəli sürüblər: sən demə, hakimiyyətdə olduğu 10 il ərzində bu adam 5 milyon dollar pulu özünə xərcləyib... Bunun yalan, ya gerçək olduğu sıravi azərbaycanlı üçün maraqlı deyil - bizim ölkədə istənilən məmurun öz qabağına çəkdiyi pay bundan qat-qat çoxdur... Bax iki qonşu ölkə arasındakı fərq də elə budur... Orada beş milyon mənimsəmə günah sayılır, bizim ölkədə isə beş milyarda görə gözün üstə qaşın var deyən yoxdur...

Biz isə bütün bunları görüb heyrətdən susuruq. Susduğumuz qədər də bizə yaşamaq limiti ayrılıb...

# "Xaricdə təhsil alan gənclərimiz təşkilatlanmalıdırlar"

## Əli Həsənov: "Həmin qruplar ASAİF-in tərkib hissəsi kimi fəaliyyət göstərməli, əsas işi diaspora və lobbiçilik olmalıdır"

**Sentyabrın 5-də Bakıda "Xaricdə Təhsil Alan və Məzun Olmuş Gənclərin Beynəlxalq Forumu" İctimai Birliyinin (ASAİF) XII Forumu başlayıb. Forumda giriş sözü ilə çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlət başçısı İlham Əliyevin iştirakçılara təbrik məktubunu oxuyub. Sonra Ə.Həsənov geniş nitq söyləyib.**



**O deyib ki, müstəqilliyimizin ilk illərində Azərbaycan gəncliyi ayrı-ayrı siyasi qruplaşmaların maraqlarının təminatçısı rolunda çıxış edirdi:** "Daha doğrusu, siyasi hakimiyyət uğrunda mübarizə aparan, ölkədə xaos yaradan dəstələr dövlətçiliyin möhkəmləndirilməsi naminə səfərbər olunası gəncləri siyasi oyunların alətinə çevirirdi. Gənclər elmdən, təhsildən, yaradıcılıqdan kənarlaşdırılır, bir sıra hallarda cəmiyyət üçün təhlükəli qüvvəyə çevrilirdi. Bu da Azərbaycanın gələcəyini sual altına alır və dövlətçiliyi məhvə doğru aparırdı".

Ə.Həsənov bildirib ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra Azərbaycanın dövlət siyasətində gənclərlə iş prioritet sahələrdən birinə çevrildi, gənclər ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etməyə başladılar.

**Ə.Həsənovun sözlərinə görə, 2003-cü ildən sonra Azərbaycanda gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub:** "Prezident 2007-ci il 16 aprel tarixli sərəncamı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiq etdi. Proqram çərçivəsində minlərlə azərbaycanlı gəncin xarici ölkələrin ali məktəblərində təhsil alması nəzərdə tutuldu. Bu gün artıq proqram çərçivəsində dünyanın aparıcı universitetlərində yüzlərlə gəncimiz təhsil alır. Bütün bunlar bir daha onu göstərir ki, ölkə rəhbəri gənclərimizin öz bilik və bacarıqlarını üzə çıxarmalarına, potensiallarını effektli reallaşdırmalarına, cəmiyyətdə layiqli yer tutmalarına münbit şərait yaradıb. Təbii ki, gənclərimiz bu etimadı layiqincə dəyərləndirməli və yaradılmış şəraitdən səmərəli istifadə etməlidirlər".

**Ə.Həsənov qeyd edib ki, xarici ölkələrdə təhsil alan gənclərin təhsili ilə yanaşı, onların ictimai həyatı və təşkilatlanması Azərbaycan üçün önəmli məsələlərdəndir:** "Bu baxımdan ASAİF-in rolunu xüsusi qeyd etmək lazımdır. ASAİF ölkəmizin hüdudlarından kənarda təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin şəbəkələşməsini və fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək məqsədilə yaradılıb. Söhbət xaricdəki gənclərin şəbəkələşməsindən və təşkilatlanmasından getdikdə, ilk növbədə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təsis etdiyi və rəhbəri olduğu Rusiya Azərbaycanlı Gənclər Təşkilatını (AMOR) nümunə göstərmək olar. O, Rusiya Federasiyasının bütün subyektlərində və ali təhsil müəssisələrində vahid bir şəbəkə yaradaraq səmərəli fəaliyyət mexanizmi qurmağa nail olub. AMOR çoxşaxəli fəaliyyəti ilə gənclərimizi milli maraqların qorunması ətrafında sıx birləşdirir, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır".

**PA rəsmisi xaricdə təhsil alan və məzun olmuş gənclərə öz tövsiyələrini də çatdırıb:** "Bu gün ölkəmizdə iqtisadiyyat inkişaf etdikcə, yeni sənaye və xidmət müəssisələri yarandıqca, peşəkar gənc kadrlara ehtiyac çoxalır. Ona görə bizim gənclərimiz yaxşı oxumalı, bilik sahibi olmalı, mütəxəssis kimi yetişməlidirlər. Gənclər təhsil aldıqları ölkələrin mədəni həyatına sıx inteqrasiya olunmalı, Azərbaycan mədəniyyətini, tarixini, turizm potensialını, Azərbaycanda gedən inkişaf prosesini xarici vətəndaşlara, həmyaşıd gənclərə tanıtmalı, Azərbaycanın tolerant ölkə imicini qorumalıdırlar. Bu baxımdan gənclərimiz olduqları ölkənin dilini öyrənməyə üstünlük verməli, mədəni dəyərlərinə hörmətlə yanaşmalıdırlar. Xaricdə təhsil alan gənclərimiz oxuduqları ali məktəblərdə, şəhərlərdə və ölkələrdə şəbəkələşməli, qrup halında təşkilatlanmalıdırlar. Həmin qruplar ASAİF-in tərkib hissəsi kimi fəaliyyət göstərməli, vahid mərkəzdən koordinasiya edilməlidir. Sözügedən qrupların əsas işi diaspora və lobbiçilik olmalıdır. Bu gün Azərbaycan öz tarixinin şərəfli və mürəkkəb dövrünü yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması yolunda görüləsi işlər hələ çoxdur. Xaricdə təhsil alan və məzun olmuş gənclərimiz bu işdə səfərbər olmalı, Azərbaycanın haqq səsini dünyaya bəyan etməlidirlər. Onlar oxuduqları ali məktəblərdə, olduqları auditoriyalarda hər fürsətdə faktlara əsaslanan təbliğatla məşğul olmalıdırlar. Gənclərimizin təbliğatının əsasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması dayansa da, xalqımızın mədəni-tarixi irsinin zənginliyinin də əcnəbilər tərəfindən tanınmasına xüsusi diqqət yetirilməlidir. Xarici auditoriya ölkəmizi yalnız münaqişə yaşayan ölkə kimi yadda saxlamamalı, onun mədəniyyətini, incəsənətini, görkəmli şəxsiyyətlərini və s. tanımalıdır. Xaricdə təhsil alan Azərbaycan gənclərinin təhsil aldığı ölkələrdə ictimai rəyə təsir imkanlarının artırılması, olduqları ölkələrin siyasi xadimləri, liderləri, elm-fikir adamları ilə görüşlərinin təşkil edilməsi vacibdir. Bu, Azərbaycanın müsbət imicinin formalaşdırılmasına ciddi təsir edə bilər. Eyni zamanda xaricdə təhsil alan gənclərimiz olduqları ölkələrin yerli mediasına çıxış əldə etməli, Azərbaycanın müsbət imicinə təsir edən məqamları işıqlandırmalı və ölkəmizi tanıtmalıdırlar".

Ə.Həsənovun sözlərinə görə, indiyədək ASAİF-in fəaliyyəti yalnız Azərbaycanda və Avropanın digər ölkələrində forumlar keçirməkdən ibarət idisə, bundan sonra təşkilat əməli fəaliyyətlərə başlamalı, xarici ölkələrdə şəbəkələşmə, lobbiçilik, diaspora işlərinə daha çox diqqət ayırmalıdır".

"Azərbaycanlı gənclərin xaricdə təhsili ölkəmiz üçün yeni bir təcrübə deyil.

Azərbaycan Gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı artıq 18 ildir ki, həyata keçirilməkdədir. Bu günə qədər proqram çərçivəsində 2902 nəfər xaricdə təhsil almaq hüququ qazanıb". APA-nın xəbərinə görə, bunu **təhsil naziri Mikayıl Cabbarov** tədbirdə çıxışı zamanı deyib. Nazir bildirib ki, dövlət proqramı çərçivəsində bu tədris ili üçün 500-ə yaxın gənc xaricdə təhsil almaq məqsədilə seçilib. Nazirin sözlərinə görə, seçim prosesi tam yekunlaşmadığı üçün bu rəqəm bir az da arta bilər: "Bu proqram çərçivəsində artıq 714 nəfər məzun olub. Bu məzunların bir çoxu ölkədə müxtəlif dövlət və özəl qurumlarda öz ixtisasları üzrə çalışır, digərləri təhsillərini növbəti illərdə də davam etdirirlər. Ümid edirik ki, tələbələr xarici ölkələrdə əldə etdikləri bilik və bacarıqları ölkənin prioritet sahələrində tətbiq edəcəklər".

**Bakı Dövlət Universitetinin rektoru, akademik, millət vəkili Abel Məhərrəmov isə xaricdə təhsil alan gənclərin bəzilərindən şikayətlənib.**

**APA-nın xəbərinə görə, A.Məhərrəmov forum çərçivəsində keçirilən panel müzakirələrdə çıxış edərək bildirib ki, tələbələr xaricdə oxumağa göndərilir, amma geri qayıtmırlar:** "Biz sizi göndərmişik ki, sonradan gəlib universitetləri gücləndirəsiniz. Biz sizə görün nə qədər pullar xərcləmişik, 20, 50, 80 min pul vermişik. Bu pulları nəyə görə vermişik? Ona görə vermişik ki, siz orada oxuyub, mütəxəssis olub, gəlib öz universitetlərimizdə işləyəsiniz, universitetlərdə elmi məktəbləri formalaşdırasınız. Universitetlər, akademiyalar elmi məktəblərlə güclənir. Açıq danışaq, bu gün sizdən yaxşı dövrdə yaşayan yoxdur. Sizi göndərmişik ki, uzun illər təcrübəsi olan universitetlərdən elmi mühiti Azərbaycana gətirəsiniz.

Əfsuslar olsun ki, mən bir rektor kimi deyirəm, universitetimizdə ingilis qruplar var və xaricdə təhsil alıb gələn gənclərin az bir qismi bu qruplara müraciət edir. Biz sizi universitetə dəvət edirik, xaricdə təhsil alandan sonra geri qayıdın və ali məktəblərlə əməkdaşlıq edin".

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014








# Ümiddə Cavad Heyət anıldı

Sentyabrın 4-də Ümid Partiyasının qərargahında Güney Azərbaycanda milli şüurun yaşamasında müstəsna rolu olmuş "VARLIQ" dərgisinin təsisçisi, tanınmış cərrah və türkoloq Doktor Cavad Heyətin anım mərasimi keçirilib. "Varlığımızın Cavad Heyəti" adlanan bu tədbirdə Ümid Partiyasının sədr müavini Rüfət Muradlının giriş nitqindən sonra məruzəçilər araşdırmaçı-alim Yasəmən Qaraqoyunlu, "Milli Mədəniyyətin Təbliği" İB-nin sədri Jalə Cəfərova və Cavad Heyət irsinin araşdırıcısı Pərvanə Məmmədli Doktor Heyətin fəlsəfi, siyasi, elmi dünyası, habelə onun mənəvi cəhətləri haqda dolğun fikirlər səsləndiriblər.

Məruzələrdən sonra çıxış edənlər professor Çərkəz Cəfərov, "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli, ADP-nin sədri Sərdar Cəlaloğlu, "125-lər" Siyasi Klubunun sədri İlhamiyyə Rza, tarix elmləri doktoru Səməd Bayramzadə, DAK təmsilçisi Babək Muğanlı, Orta Şərq araşdırmaları mərkəzinin direktoru Sədrəddin Soltan, AMDHP-nin sədr müavini Həbib Ələkbərsoy, filologiya elmləri doktoru Esmira Şükürova, şairə Təranə Sübhəm və başqaları Doktor Cavad Heyətin Güneydə milli varlığımızın yaşaması, habelə bir cərrah və alim kimi fəaliyyətləri ilə bağlı düşüncələrini paylaşıblar.
























Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir



# Qarabağı necə ayıraq?

**Zamin HACI**
zaminhaci@gmail.com

**Deputatxanada sosial siyasət sexini işlədən Hadı müəllimdən dünyada geniş yayılmış buzlu su aksiyasına münasibət soruşmuşdular. Hadı müəllim demişdi ki, bu aksiyanın mənasını anlamır, ümumiyyətlə, gərək xeyriyyə tədbirləri milli adət-ənənələrimizə uyğun olsun.**

Düzü, mən bilmirəm bizim milli xeyriyyəçilik adətlərimiz necədir. Tarixdə Hacı Zeynalabdin kimi bir-iki xeyriyyəçimiz olub, onları da nəsillikcə məhv eləmişik, o vaxtdan hamı başqasına yardım etməyə, sosiallaşmağa, cəmiyyət olmağa pis baxır. İki yetimə bir konfet verəndə də onu dəfələrlə telekanalizasiyada göstərirlər. Hətta o konfetin elə həmin yetimin yetim olması hesabına ortaya çıxdığını da düşünən olmur.

Ancaq ta deputat deyibsə gərək biz başımıza milli şəkildə nəsə salaq. Misal üçün, bəzi gənclər "Kül bizim başımıza" aksiyası keçirdirlər, mən bunu dəstəkləyirəm. Bundan başqa, "Daş düşsün başımıza", "Qapaz qoyaq təpəmizə" aksiyaları da məqsədəuyğundur. Bəs məqsəd nədir?

Məqsəd, əlbəttə, Qarabağın işğaldan azad olunmasıdır. Hakimiyyət bu yöndə çox işlər görür, hər gün bir qarış irəliləyirik, inşallah, 224 ildən sonra Füzuli rayonunun Qorqan kəndinə xeyli yaxınlaşacağıq. Dəqiq riyazi hesablamadır, şübhə edənin başına daş düşsün!

Elə Prezident Administrasiyasının məsul işçilərindən Əli Həsənovun bugünlərdə xaricdə oxuyan gənclərlə görüşü zamanı da Qarabağ məsələsi gündəmdə olmuşdur. Əli müəllim gənclərə məsləhət verib ki, xaricdə özlərini Akif Nağı kimi aparmasınlar. Sitat: "Gənclərimiz dərhal dostları ilə Dağlıq Qarabağ münaqişəsindən danışmağa başlasalar, onlar yaxşı həmsöhbət olmayacaqlar. Və gənclərimizin söhbətləri də o qədər effekt verməyəcək. Xaricdə Azərbaycan haqqında deyəcəklər ki, bura da Əfqanıstan kimi bir yerdir. Onlar Qarabağ məsələsini ayrıca təbliğ etməlidirlər" *(qafqazinfo.az).*

Doğrudan da xaricdə hava limanında düşən kimi "Qa-ra-bağ!", "Ermənilər tülküdür, Hava yaman bürküdür!" qışqırmağın bir mənası yoxdur. Əvvəlcə get bir dükan-bazara, evdəkilərin tapşırdıqlarını al, burdan hökumətin göndərdiyi kürü bankalarını Mövlud Çavuşoğlu tipli yetimlərə, aclara verib xeyriyyə aksiyası yap, ondan sonra işğal edilmiş torpaqlarımızdan danışarsan. Yoxsa Əfqanıstan... Biz yeri gələndə Əfqanıstandan xeyli qabaqdayıq. Misal üçün, onlar prezident seçkisi keçirdəndə qalibi tapmaq üçün iki həftə səsləri sayırlar, bizdə isə qalib seçkiyə iki il qalmışdan məlum olur. Ta söz düşüb, bir faktı da yazım: Seçki Monitorinqi Mərkəzinin şefi Anar Məmmədli ATƏT eksperti kimi qabaqlar Əfqanıstanda seçkiləri müşahidə etmişdi, sağ-salamat qayıtmışdı. Ancaq Azərbaycanda seçkiləri müşahidə edəndən sonra yapçılar Anar bəyi tutub zindana saldılar. Əlbəttə, xaricdə oxuyan uşaqlar bunu başqa heç yerdə deməsinlər, öz aramızda danışırıq.

Amma və lakin "Qarabağı ayrıca təbliğ edin" deyənlər gənclərimizi necə çətin vəziyyətdə qoyduğunu fikirləşmirlər. Axı xaricdə oxuyanların çoxu kasıb nazir-mazir uşaqlarıdır, onlar isə ürəklərindən Qarabağ naləsini, fəryadını necə ayırsınlar? Necə desinlər ki, ay Kəlbəcər dağları, sən hələ bir qıraqda dur, mən Ketrinə milli mətbəximizi izah edim, sonra Murov aşırımından keçib sənə gələrik? Vətən yanğısı bu gənclərimizin qəlbində alov düşmüş neft platforması kimi bir şeydir, söndürmək çox çətin olur. Biz Qarabağı ayıra bilmərik!

Hər bir gənc bu duyğularla yaşayır. Təzə bir dava da var, bunu prodüser Toliklə müğənni Natəvan Həbibi başlayıb. Tolik deyir ki, Natəvan Türkmənistanda doğum şəhadətnaməsini dəyişdirib. Guya müğənni azərbaycanlı deyilmiş, hətta, əlim qurusun bunu yazdığım yerdə: erməni imiş! Natəvan xanım da deyib ki, Tolik qələt edir, onun bu bəyanatına... Azərbaycan Xarici İşlər Nazirliyi münasibət bildirəcək.

Əla söhbətdir. Son anda dəqiqləşdirdim, Kardiff şəhərində NATO sammitində olan Elmar Məmmədyarov Tolikə və Natəvan Həbibiyə telefon açıb, deyib ki, bu saat ayrıca Qarabağ dərdi ilə məşğulam, özünüzü Hollandiyadakı kimi aparmayın, bizim milli adətlərimiz vardır. Bundan sonra dəstəyi yerə qoyub, girib təzədən səngərə.

Mövzu diqqətimizdədir, yenilik olsa xəbər verəcəyik.

# Prezidentlərin Uels görüşünün pərdəarxası

## Qərb Qarabağ təşəbbüskarlığını Rusiyadan alır; ABŞ-ın patronajlığı ilə prezidentlərin Uelsdə baş tutan görüşündə Vaşinqton münaqişə tərəflərini öz xalqlarını sülhə hazırlamağa çağırdı; daha bir analoji təmas az sonra Fransada reallaşmalıdır; **İlham Əliyev:** "Regiona ən böyük hədə Ermənistanın işğalçılıq siyasətidir..."

**Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanın Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə avqustun 10-da Soçidə keçirilmiş görüşündən bir ay ötməmiş daha bir görüş NATO-nun Ulels sammiti çərçivəsində baş tutub. Bu dəfə ABŞ-ın dövlət katibi Con Kerrinin təşəbbüsü və vasitəçiliyi ilə.**



Görüş Nyuport şəhərində keçirilib. Con Kerri öz çıxışında Dağlıq Qarabağ münaqişəsinin dinc nizamlanmasının alternativinin olmadığını bəyan edib. O, tərəfləri təmas xəttində gərginliyi azaltmaq və qarşılıqlı şəkildə etimadı möhkəmləndirməyin mexanizmini tapmağa çağırıb. Eyni zamanda ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqları davam etdirməyin vacibliyini vurğulayıb. ABŞ xarici siyasət idarəsi başçısının sözlərinə görə, münaqişənin sülh yolu ilə həlli üçün tərəflərin siyasi iradəsi çox vacibdir. Dövlət katibi Minsk Qrupu çərçivəsində danışıqlarda şəxsən iştirak eləməyə hazır olduğunu da vurğulayıb.

Maraqlıdır ki, üçtərəfli Azərbaycan-ABŞ-Ermənistan müzakirələrinə xarici işlər nazirləri ilə yanaşı, Minsk Qrupu həmsədrlərindən yalnız amerikalı həmsədr Ceyms Uorlik qatılıb. Müzakirələrin yekunu ilə bağlı Soçi görüşündəki kimi, hər hansı bəyanat qəbul edilməyib, ortaq sənəd imzalanmayıb.

Görüşə Qərb baxışını Uorlik özünün twitter səhifəsində ifadə edərək, danışıqların məhsuldar keçdiyini və Qərb vasitəçilərinin münaqişənin birdəfəlik həllinə yardımçı olmağa hazır olduğunu yazıb. Dövlət Departamentinin görüş barədə yaydığı rəsmi açıqlamada isə bildirilir ki, görüşdə münaqişənin həlli istiqamətindəki danışıqlar prosesi və hazırkı vəziyyət barədə fikir mübadiləsi aparılıb (APA).

**Məlumatda qeyd olunub ki, ABŞ dövlət katibi bir müddət əvvəl cəbhə xəttində yaranmış şiddətli gərginliklə bağlı dərin narahatlığını ifadə edib:** "Birləşmiş Ştatlar inanır ki, toqquşmaların səngiməsi və əlaqələrin normallaşdırılması Azərbaycan və Ermənistan arasında sülh yaradacaq. Bu, hər iki ölkənin xalqlarının gələcəyini təmin edəcək, həmçinin Cənubi Qafqazda sabitliyin bərpası üçün mühüm addım olacaq. Məhz bu məqsədlərlə, dövlət katibi Kerri prezidentləri atəşkəs rejiminə riayət etməyə və cəmiyyətlərini sülhə hazırlamaq istiqamətində əlavə addımlar atmağa çağırıb".

**Məlumatda həmçinin vurğulanır ki, Kerri münaqişə tərəflərini sülh prosesində vasitəçi olan Minsk Qrupunun həmsədrləri ilə birgə işləməyə həvəsləndirib:** "ABŞ dövlət katibi habelə prezidentlərin dialoqu davam etdirməyə razılaşmasını alqışlayıb. O, tərəfləri danışıqlarda daha da yaxından iştirak etməyə çağırıb. Prosesin davamlılığı tərəflər arasında etimad yaratmağa və bölgə xalqlarının layiq olduğu sülhə çatmağa xidmət edəcək".



Sammit çərçivəsində yaranan fürsətdən Fransa prezidenti Fransua Olland da yararlanıb. O, ayrı-ayrılıqda İlham Əliyev və Serj Sərkisyanla bir araya gələrək Qarabağ mövzusunda müzakirələr aparıb. Məlumatlara görə, müzakirələr əsnasında tərəflər ölkələr arasında təmasların artmasından məmnunluq ifadə edib və müxtəlif sahələrdə əlaqələrin inkişafının perspektivlərinə toxunublar. O da bəlli olub ki, Kerrinin vasitəçiliyi ilə reallaşan görüşdən az sonra yaxın zamanlarda Fransa da prezidentlərin daha bir görüşünə nail olmaq niyyətindədir. Görüşün Fransa ərazisində keçirilməsi nəzərdə tutulur. Bununla da Olland yayda Azərbaycan və Ermənistan prezidentlərinə elədiyi, lakin baş tutmamış təklifini, nəhayət, reallaşdırmaq istəyir.

****

Beləliklə, Rusiyanın Soçi görüşü ilə münaqişənin həllində əsas dövlət olmasını nümayiş etdirmək cəhdinin ardınca Qərb *(ABŞ, Fransa)* təşəbbüsü ələ almış kimi görünür. Bu təşəbbüskarlığın konkret nəticəyə gətirib-gətirməyəcəyini, Rusiyanın prosesə nə dərəcədə mane olacağını söyləmək isə hələlik çətindir. Dəqiq olan budur ki, hazırda Qərblə Rusiya arasında mübarizə həm də Qarabağ problemində həlledici söz sahibliyi uğrundadır.

**Qarabağ məsələsi iki günlük sammit çərçivəsində başqa səviyyələrdə və formatlarda da diqqət mərkəzində olub. Məsələn, prezidentlərin görüşündən az öncə - sentyabrın 4-də Azərbaycan və Ermənistan prezidentləri sammitdə çıxış ediblər. Prezident Əliyev çıxışı zamanı bəyan edib ki, Azərbaycanla NATO arasında tərəfdaşlığın 20 ili ərzində ölkəmiz alyansın bir çox fəaliyyət sahəsinə töhfə verən etibarlı tərəfdaşa çevrilib. Azərbaycanın regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynadığını deyən ölkə başçısı daha sonra hazırda regionun təhlükəsizliyinə ən böyük hədənin Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və 7 ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasəti ilə bağlı olduğunu deyib:** "Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir. Biz NATO-nun bu məsələ ilə bağlı mövqeyini və əvvəlki sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi tam dəstəyi yüksək dəyərləndiririk. Biz qətiyyətlə inanırıq ki, NATO-nun beynəlxalq hüququn bu cür mühüm hissəsinə sadiqliyi bundan sonra da davam edəcək. Beləliklə, o, ədaləti bərpa etməyə və beynəlxalq səviyyədə tanınmış sərhədləri güc sayəsində dəyişmək kimi səhv düşüncədən yayındırmağa birmənalı şəkildə yardım edir".

**Sərkisyan isə ənənəvi erməni hiyləgərliyi ilə qabaqdan gəlmişlik edərək NATO sammitinin sentyabrın 5-də qəbul edəcəyi sənəddə Dağlıq Qarabağ problemi ilə ehtiyatlı olmağa səsləyib. Onun çıxışında bu ifadələr yer alıb (mediaforum):** "Sabah (sentyabrın 5-də-red.) bu zalda mənim xalqımın təhlükəsizliyinə və bizim regionda sülhə dəxli olan sənəd qəbul ediləcək. İki variant var. Ya Qarabağ münaqişəsi ilə bağlı ixtisaslaşmış yeganə beynəlxalq struktur olan Minsk Qrupunun ritorikasından, ABŞ və Fransanın dəstəklədiyi ritorikadan istifadə ediləcək, ya da NATO-nun digər üzvünün lobbiçiliyi *(ad çəkmir, təbii ki, Türkiyəni nəzərdə tutur - red.)* baş verəcək. Ya sağlam düşüncə, sülhə can atımı qalib gələcək, ya da ksenofobiya, müharibə ritorikası, insan itkilərinə gətirən təxribatlar şirnikləndiriləcək. İkinci variant yaxşı nəticəyə gətirməyəcək. Belə sənədlər Azərbaycana qol-qanad verir".

❑ **Siyasət şöbəsi**



# YAP-çı deputatın Rusiyanı tərifləməsi etirazla qarşılandı

## Eldar İbrahimovun “Rusiyadan Azərbaycana ancaq yaxşılıq ola bilər” sözlərinə cavab: “Bütün tarix boyu Rusiya Azərbaycanın dövlətçiliyinə qarşı olub”

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü Eldar İbrahimov publika.az saytına müsahibəsində Azərbaycan-Rusiya münasibətlərindən, Azərbaycana şimaldan hansısa təhlükənin olub-olmamasından danışıb.**

YAP-çı deputat deyib ki, Azərbaycan və Rusiya münasibətləri hazırda yüksək səviyyədir. İki ölkə arasındakı münasibətləri heç kəs poza bilməz: “Rusiya bizim böyük qonşumuzdur. Prezident İlham Əliyevlə Rusiya prezidenti Vladimir Putin arasında da çox yaxşı dostluq əlaqələri var. Bizim bir-birimizə inamımız var. Mən hər zaman bu münasibətlərin yaxşı olmasının tərəfdarıyam. Dəfələrlə də çıxışlarımda bu fikirlərimi demişəm”.

**Hakimiyyət təmsilçisi onu da bildirib ki, Rusiyadan bizə hər hansı təhlükə ola bilməz:** “Rusiyadan Azərbaycana ancaq yaxşılıq ola bilər. Mən bu yaxşılığı da Rusiyadan gözləyirəm. Bu yaxşılığı Rusiyadan bütün Azərbaycan xalqı görəcək”.

Azərbaycan müxalifətinin təmsilçiləri isə Rusiyanın Azərbaycana münasibətdə heç vaxt səmimi olmadığını, Azərbaycanın torpaqlarını işğal edən Ermənistana daim dəstək verdiyini bildirir. Müxalifətin fikrincə, Putinin Avrasiya İttifaqı ideyası tam reallaşmadığı üçün Azərbaycana təhlükə hələ də qalır.

**Bu barədə “Yeni Müsavat”a açıqlamasında Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı bildirdi ki, Azərbaycan hakimiyyətinin xarici siyasətində guya balanslaşdırılmış siyasət yürüdüldüyü iddia edilsə də, bu, faktlarla görünmür. Bu da ondan irəli gəlir ki, Azərbaycan Qərblə Rusiya arasında seçimdə hələ tərəddüd edir. Amma həm siyasi təhlillər, həm də görünən ondan ibarətdir ki, Azərbaycan nə Qərbə, nə də Avrasiya İttifaqına qoşulma haqqında qərar verməyib:** “Bu məsələdə gözləmə mövqeyi tutulub. Avrasiya İttifaqına daxil olmaqla guya Qarabağ məsələsinin həllinin yaxınlaşacağını deyən siyasilər də artıq mövqelərində dəyişiklik edirlər. Onlar da artıq etiraf edirlər ki, Azərbaycanın Avrasiya İttifaqına qoşulması ilə Qarabağ probleminin həlli mümkün deyil. İndiki halda güman eləmirəm ki, Azərbaycan hakimiyyəti Avrasiya İttifaqına daxil olmaq kimi yanlış bir qərara imza atsın. Gürcüstan, Ukrayna və Moldovanın Avropa Birliyi ilə assosiativ sazişi imzalaması bu üç GUAM ölkəsinin Qərbə inteqrasiya xəttinin rəsmiləşdirilməsi oldu. Azərbaycanın da bu istiqamətdə rəsmi addım atması tam məqsədəuyğun olar. Rusiya artıq yanlış siyasətinin girovuna çevrilib və çətin durumla üzləşib. Özünü belə bir durma gətirib salmış bir ölkənin yaratdığı bir ittifaqa özünə hörmət edən və gələcəyini düşünən dövlət daxil olmaz.



Eldar İbrahimov

Rusiya indi öz başının hayındadır, dünyada itirdiyi mövqeləri geri qaytarmaq haqqında düşünür. Odur ki, Azərbaycan üçün təhlükə bir müddət əvvəlki dövrə nisbətən azalmış sayıla bilər. Ancaq aradan qalxmayıb. Azərbaycan hakimiyyəti Ukrayna məsələsinə münasibətdə BMT-də tutduğu xətti sona qədər davam eləməlidir. Bu xətt eyni zamanda Dağlıq Qarabağın azad olunması xəttidir”.

**ADP sədri Sərdar Cəlaloğlu hesab edir ki, tarixin istənilən dönəminə diqqət etdikdə Rusiyanın Azərbaycanın dövlətçiliyinə qarşı olduğu, dövlətçiliyini sarsıtdığı faktları ortaya çıxır. Ona görə də bu gün də Rusiyanı Azərbaycanın yaxşılığını istəyən qonşu kimi qəbul etmək əsassızdır. S.Cəlaloğlunun fikrincə, Rusiya prezidentinin proyekti olan Avrasiya İttifaqı təhlükəsi tam aradan qalxmasa da son proseslər nəticəsində müəyyən qədər azalıb:** “Avropanın Rusiyanı iqtisadi blokadaya alması, Ukraynada prezident seçkilərindən sonra milli hökumətin formalaşması və milli ordunu ciddi şəkildə reformasiya etmələri əvvəlki situasiyanı 30 faiz dəyişdirib. Rusiya bir neçə ay önçəki mövqelərini itirib. Amma Rusiya tamamilə zərərsizləşənə qədər proses davam eləməlidir. İndiki halda Azərbaycana və regiona Rusiya təhlükəsi azalıb, ancaq qalır”.

❑ **Etibar SEYİDAĞA**

# Qərb SSRİ-ni çökdürmək planını indi də Kremlə tətbiq edir

## Ekspertə görə, Rusiyanın daxildən parçalanması və maliyyə imkanlarının məhdudlaşdırılması prosesi başlayır

**Qərbin beyin mərkəzləri və siyasi dairələri dayanmadan SSRİ-ni çökdürmək üçün çalışırdılar və enerjilərini buna yönəltmişdilər, indi də eyni proses başlayacaq. Rusiyanın Ukraynada hərbi əməliyyatlara qatılması Qərblə münasibətləri daha da kəskinləşdirib.**

NATO-nun Rusiyanın Ukrayna siyasətinə qarşı cavab addımları planlaşdırdığı bildirilir. ABŞ dəniz qüvvələrinə məxsus 4 hərbi gəminin Qara dənizə göndərildiyi və Ukrayna ordusu ilə birgə təlimlərin başlaması ilə bağlı xəbərlər yayılıb.



Elxan Şahinoğlu

Ancaq ABŞ hökuməti bəyan edib ki, Rəsmi Vaşinqton Ukraynadakı vəziyyətlə əlaqədar Moskva ilə hərbi münaqişəyə girməyəcək. Bu barədə ABŞ-ın müdafiə naziri Çak Hagel məlumat verib. Müdafiə naziri Rusiyanı Ukraynada gərginliyi artıran təhlükəli addımlar atmaqda günahlandırıb və bunun rəsmi Moskva üçün nəticəsiz qalmayacağını vurğulayıb.

Bununla belə, Hagel qeyd edib ki, ABŞ Rusiya ilə müharibə aparmayacaq. O, ABŞ administrasiyasının Ukraynadakı vəziyyətlə əlaqədar seçdiyi yanaşmanı dəstəklədiyini bildirərək münaqişənin nizamlanmasında diplomatiyaya üstünlük verdiyini ifadə edib. Maraqlıdır ki, bugünlərdə Rusiya prezidenti **Vladimir Putin** ölkəsi qarşıdurmalara sövq edilərsə, buna çox sərt cavab veriləcəyini bildirib. **Sitat: “Ortaqlarımız hansı xarici siyasət yürüdürsə yürütsün, ancaq onu bilsinlər ki, bizimlə qarşıdurma onlara fəlakət gətirər”.**

Mövzunu “Yeni Müsavat”a dəyərləndirən **politoloq Elxan Şahinoğlu** deyir ki, Qərb-Rusiya qarşıdurmasında Rusiya daha çox zərər çəkəcək: “Vladimir Putinin bugünkü siyasəti Rusiyanı geri atır. Bunu sadə riyazi hesablamalar da göstərir. Rusiyanın son hadisələrdən "qazancı" nə oldu? Putin Krımı Rusiyaya birləşdirdi, Ukraynada Dağlıq Qarabağa bənzər separatçı bölgə yaradaraq öz düşüncəsində Kiyevə təsir imkanı əldə etdi. İndi gəlin Rusiyanın real itkilərini hesablayaq. Putin Krımı işğal etdiyinə görə dünyanı soyuq müharibə dövrünə qaytardı, beynəlxalq aləmin ümid etdiyi demokratik və sabit Rusiya xülyası puça çıxdı, ABŞ və Avropa bu ölkə ilə çar dövrü və ya keçmiş SSRİ arasında bərabərlik işarəsi qoydular. Rusiya ən əsası qardaş adlandırdığı Ukraynanı birdəfəlik itirdi, heç bir ukraynalı ölkəsinin parçalanmasını Moskvaya bağışlamayacaq".

**E.Şahinoğlu deyir ki, Rusiya ilə Qərb arasında birbaşa hərbi konfrontasiya baş verməsə də, Moskvaya şiddətli təzyiqlər olacaq:** “Əlbəttə, Qərb Ukraynaya görə Rusiya ilə savaşmayacaq. Böyük müharibənin olacağını ehtimal etmirəm. Ancaq Qərbdə artıq düyməyə basılıb. Necə ki, vaxtilə Qərbin beyin mərkəzləri və siyasi dairələri dayanmadan SSRİ-ni çökdürmək üçün çalışırdılar və enerjilərini buna yönəltmişdilər, indi də eyni proses başlayacaq. Qərbdə anladılar ki, Rusiyanın inkişafı, maliyyə imkanlarının artımı bu ölkənin sabit siyasətinə xidmət etmir, tam əksinə, Moskvanın iştahasını artırır, Kremli yeni ekspansiyalara həvəsləndirir. Deməli, Rusiyanı zəiflətmənin yolu bu dövlətin daxildən parçalanmasından və maliyyə imkanlarının məhdudlaşdırılmasından keçir. Rusiyanın maliyyə potensialı neft və qazın satışı üzərində qurulub. Bu sahələrdə problem olarsa, Rusiya iqtisadiyyatı çökəcək. Ona görə də yaxın perspektivdə Rusiyanı bu iki sahədə problem gözləyəcək. Bu problemi isə ona Qərb yaradacaq”.

❑ **KƏNAN**



# Moskvada Putin rejiminə qarşı aksiyalar başlayır

## Sentyabrın 21-də ümumrusiya sülh marşı keçiriləcək

**Sentyabrın 21-də Moskvada ümumrusiya sülh marşı təşkil olunacaq. Modern.az xarici mətbuata istinadən bildirir ki, planlaşdırılan aksiyanın təşkilatçıları bu haqda özlərinin facebook səhifələrində xəbər yayıblar. Onlar aksiyada 50 min rusiyalının iştirak edəcəyini planlaşdırırlar: “Biz Rusiya hakimiyyətinin məsuliyyətsiz aqressiya siyasətini dayandırmasını tələb edirik. Bu siyasət Ukrayna torpağına müharibə gətirməyib, həm də minlərlə ukraynalının və rusiyalının həyatını itirməsinə səbəb olub. Rusiya ordusunun hərbçiləri Ukrayna torpaqlarında həlak olur, yaxud əsir düşürlər. Bu, artıq birbaşa hərbi müdaxilədir və heç bir bəraəti yoxdur”.**

Təşkilatçıların fikrincə, Putinin siyasəti Rusiya daxilində repressiyanın güclənməsi, Rusiya vətəndaşlarının hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə müşayiət olunur: “Bəli, bu siyasət ölkədə faşist ənənələrinin genişlənməsinə, ağır iqtisadi faciələrə və Rusiyanın dünyadan təcrid olunmasına aparır”.

Rusiyaya qarşı sanksiyalar təsirini göstərir, ancaq Qərbin Rusiyada dəyişikliyə zəmin yaratmaq üçün digər sanksiyalar da qəbul etməsi lazımdır. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, bunu Ukrayna məsələsi ilə bağlı “BBC World”a Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili xüsusi bəyanatında bildirib. O, Qərbin Rusiyaya qarşı təzyiq vasitələrindən danışaraq qeyd edib ki, sanksiyalar sonda böyük dəyişikliklər üçün zəmin yaradacaq. Bundan əlavə, Saakaşvili Gürcüstanla paralellər apararaq bəyan edib ki, Putin hər iki ölkədə müstəqilliyi və uğurları öldürmək istəyib: “Rusiya Ukraynada demokratiya ideyasını və ölkənin istənilən uğurunu öldürmək istəyir. Onun Gürcüstandakı uğurlar və islahatlarla bağlı bənzər istəyi olub. Biz bir tərəfdən Qərbin dəstəyini görürük, digər tərəfdən Qərbin hələ çox təsir imkanları var. Məsələn, iqtisadi baxımdan Rusiya Avropaya qalib gələ bilməz”.

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014



# Müəyyənlik fiksiyası...

Hüseynbala SƏLİMOV

**Dünya həqiqətən də qəribədir. Bəli, zaman boyunca, keçmişə və gələcəyə hərəkət etməyin mümkün olub-olmaması haqda fiziklər hələ çox mübahisə edəcəklər.**

Qərəz, fiziklər hələ də mübahisə yapır, amma siyasət adamları məsələni onların əvəzinə çoxdan "həll ediblər"- ölkələr var ki, orada keçmişə və gələcəyə səyahət nəinki nəzəri cəhətdən mümkündür, hətta praktiki baxımdan da çox "asan" görünür. Yetər ki, belə ölkələrin rəhbərləri bunu ürəkdən istəsinlər...

Sizə qəribə gəlməsin, Azərbaycanda baş verən proseslər haqda düşünərkən ağlımıza gələn ilk fikirlər bunlar oldu. Birdən-birə özümüzü lap keçmişə aparan zaman maşınının sərnişinləri kimi hiss etdik.

Amma mətləbə keçməmişdən öncə daha bir detalı da xatırlatmaq istərdik. Bəzən həkimlər xəstəliyin adını xəstədən gizli saxlayırlar. Onlar bunu o vaxt edirlər ki, xəstəlik tamam çarəsiz olur.

İndi Azərbaycandakı ictimai-siyasi proseslərin də "diaqnoz"unu öz adı ilə adlandırmaq elə də asan məsələ deyil.

Bu, təkcə bir sosiloq, bir təhlilçi kimi aciz görünmək qorxusundan irəli gəlmir. Belə olsaydı, necə deyərlər, dərd yarı olardı...

Ölkədə nə baş verir? İnsanların biganəliyindən, etinasızlığından istifadə edərək ölkəni hara, hansı səmtə sürükləyirlər? Bəlkə də bu prosesin heç bir müqavimətlə rastlaşmamasının səbəbi budur ki, yeni nəslin müqayisə aparmaq imkanı yoxdur, bir çox hallarda onlar dəyişikliklərin fərqində olmurlar.

Yalnız orta və yaşlı nəslin nümayəndələrinin müqayisə aparmaq və ölkənin hansı səmtə irəlilədiyini müəyyən etmək imkanları var. Onlar da artıq yorulub.

Yorğunluq sizə qəribə görünməsin, bunu politoloqlar da etiraf edir.

Məsələnin ən qəliz tərəfi isə budur ki, 1993-cü ildən bu tərəfə bu ölkədə bəlkə də yalnız saatların əqrəbləri irəli hərəkət ediblər, demokratiyanın və insan haqlarının vəziyyəti isə daim geriləyib.

Amma bunun fərqində olmayanlar da var. Məsələ bundadırı ki, indi elə bir nəsil yetişib ki, onlar Qarabağı Azərbaycanın tərkibində görməyiblər. Elə bir nəsil yetişib ki, onlar 80-ci illərin azadlıq mehini hiss etməyiblər. Elə bir nəsil yetişib ki, onlar indi ölkəni idarə edənlərin keçmişindən xəbərsizdirlər, onların şüarlarını hava və su kimi udur və bütün bunların arxasında bir Mefistofel ruhunun dayandığının fərqində deyillər...

Bununla heç də ölkənin problemlərini nəsillərin probleminə transfer etmək niyyətində deyilik. İctimai-siyasi proseslər bütün formal sxemlərdən daha qəlizdir. Burada ölkəni idarə edən zümrənin sosial-psixoloji təcrübəsi də var, bir partiyanın mütləq hakimiyyətə can atmaq istəyi də... Elə bəlkə də proseslərin açarı da məhz bu son detaldadır. Deyirlər ki, hakimiyyət insanları korlayır, mütləq hakimiyyət isə onları tamam uçuruma aparır.

İdarə edənlər həmin bu xəbərdarlığı heç də həmişə yadda saxlamırlar. Ona görə ki, reallıq hissini itirirlər, cəmiyyətlə manipulyasiya elə bir həddə çatır ki, idarə edənlər ondan rahat bir xəmir kimi istədikləri kündəni yapa biləcəklərini zənn edirlər...

Amma təbiət heç vaxt, heç kimə mütləq keyfiyyətlər bəxş etmir. Təbiət mütləqiyyətə can atanları, ümumiyyətlə, sevmir, çünki hər bir şeydə bir balans olmalıdır, əks təqdirdə təbiətin özündəki tarazlıq pozula bilər.

Bütün idarə edənlər elə zənn edir ki, onlar öz cəmiyyətlərini gözəl dərk ediblər. Ona görə ki, böyük bir şəbəkə qururlar, bəzən hətta şəbəkənin özünə də nəzarət etmək üçün başqa bir şəbəkə yaradırlar. Amma hamısı faydasızdır.

Elə bir gün gəlir ki, onlar da yaşadıqları cəmiyyəti bilmədiklərini, axıra qədər tanımadıqlarını etiraf etməli olurlar...

Azərbaycan gənc dövlətdir. Hələ ondan prinsipcə, istənilən "kündə"ni yapmaq olar. Amma bu, əbədi davam edə bilməz. Ən azı ona görə ki, cəmiyyətlə bağlı hadisələrdə determinizm olmur. Heç axtarsan bəlkə də təbiətin özündə determinzm yoxdur, bəzi proseslər bizə ona görə müəyyən görünür ki, biz onları çox kiçik zaman intervallarında müşahidə edirik. Bir az böyük zaman intervalına çıxanda artıq adət etdiyimiz nizam-tərəzi pozulur, hər şey təsadüfə bürünür.

Məhz bu səbəbdən "uzaq plan"lar üçün nəzərdə tutulmuş bütün uzunmüddətli avtoritar sxemlər bir fiksiyadır...

# "Hafka"ya qarşı 50 milyon avroluq məhkəmə iddiası

## "Sheffield Wednesday" klubunun prezidenti müqavilə öhdəliklərini yerinə yetirmədiyi üçün Hafiz Məmmədovu məhkəməyə verir

**"Hafka" ləqəbi ilə tanınan iş adamı Hafiz Məmmədovun başı ciddi dərdə girib. Virtualaz.org saytı xəbər verir ki, az əvvəl İngiltərənin ikinci liqada oynayan "Sheffield Wednesday" klubunun sahibi və prezidenti, serb əsili iş adamı Milan Mandariç klubun H.Məmmədova satılmasına dair bu ilin may ayında bağlanmış müqavilənin qüvvədən düşdüyünü elan edib. M.Mandariç bəyan edib ki, müqavilə öhdəliklərini yerinə yetirmədiyi üçün H.Məmmədova qarşı məhkəmə iddiası qaldırır.**




M.Mandariçin bu bəyanatını ildırım sürəti ilə aparıcı Avropa KİV-ləri tirajlamaqdadır. İngilis klubunun prezidenti bəyan edib ki, müqavilənin qüvvədən düşməsinə səbəb H.Məmmədovun "Sheffield Wednesday"in səhmlərinin 100 faizi üçün 40 milyon funt-sterlinq (təxminən 50 milyon avro) vəsaiti ödəmək iqtidarında olmamasıdır.

Mayın sonlarında bağlanmış müqavilə həmin andan qüvvəyə minirdi və H.Məmmədov klubun səhmlərinin alınması üçün M.Mandariçə 50 milyon avro ödəməli idi. M.Mandariç müqaviləni hələ ötən ay pozmağa hazır olduqlarını, lakin Məmmədovla danışıqları son ana qədər davam etdirdiklərini bildirib.

**M.Mandariç bəyan edib**: "Təəssüf ki, müqavilənin bağlanmasından bu yana Məmmədovla və onun nümayəndələri ilə işləməyimizə baxmayaraq, o, müqavilə üzrə üzərinə düşən öhdəlikləri yerinə yetirmək iqtidarında olmayıb. Bura həm klubun səhmlərinin alınması, həm sponsor razılaşması öhdəlikləri daxildir".

M.Mandariç bildirib ki, klubun Məmmədova satılmasına dair müqavilə imzalananda azarkeşlər sevinmişdi. Onlar inanırdı ki, bu sövdələşmə klub üçün yeni imkanlar açır.

"Lakin onlar prosesin başa çatdırılması üçün əlavə vaxt istəməyim barədə qərarımdan çox məyus oldular. Bu dövrdə mən biznesi idarə etməkdə və klubun cari maliyyə problemlərini həll etməkdə davam etdim. Tərəfdarlarımız gördülər ki, biz sponsor razılaşmasına əməl edirik və üzərində "Land of Fire Azerbaijan" yazılmış yeni köynəkləri fəxrlə geyinirik" - deyə M.Mandariç bildirib.

"Mən cənab Məmmədovun Azərbaycanda üzləşdiyi çətinlikləri çox tezliklə aradan qaldıracağına ümid etsəm də klubun adı ətrafında spekulyasiyaların davam etməsinə imkan verə bilmərəm və hüquq məsləhətçilərimdən onların zəruri hesab etdiyi məhkəmə iddiasını qaldırmağı xahiş etmişəm" - M.Mandariç əlavə edib.

Klub prezidenti deyib ki, o, səhmlərin satılması üçün yeni tərəfdaş axtaracaq.

Britaniya mətbuatı xatırladır ki, H.Məmmədovun Fransada aldığı "Lans" klubu da böhran içindədir və azərbaycanlı oliarx klubun büdcəsinə heç bir vəsait ödəmək iqtidarında deyil. Bu üzdən "Lans"a futbolçu transferi qadağan edilib.

Xatırladaq ki,, H.Məmmədov hazırda müflis vəziyyətdədir və borc içində batır. Göründüyü kimi, "Hafka"nın müflis durumda olduğu halda ingilis klubunu almaq barədə müqavilə bağlaması onun başını ciddi dərdə salıb. İndi o, məhkəmə qarşısında cavab verməli olacaq.

# Murad Dadaşov biznesinin çökməsi xəbərindən danışdı






**Tanınmış şoumen Murad Dadaşovun biznesi çöküb. Onun metronun "İçərişəhər" stansiyası yaxınlığında, İstiqlaliyyət küçəsində yerləşən "Cote d'Azur" şirniyyat mağazası bağlanıb.**

Mağazanın içərisi sökülüb, qapıları taybatay açıqdır.

Milli.az. obyektin hansı səbəbdən bağlanması barədə məlumat öyrənə bilməyib.

""Cote dAzur" şirniyyat mağazamız bağlanmayıb. Yenə də şifarişlər qəbul edirik. Sadəcə, mağazada təmir işləri gedir".

Bu sözləri isə axar az-a "Cote dAzur" şirniyyat mağazasının sahibi tanınmış şoumen Murad Dadaşov mağazasının bağlanması ilə bağlı informasiyaya aydınlıq gətirərkən deyib.

**M.Dadaşov qeyd edib ki, mağazada təmir işləri bitdikdən sonra yenidən əvvəlki kimi çalışacaq:** "İndi də şirniyyat mağazamız fəaliyyət göstərir. Sadəcə, mağazada təmir işləri gedir. Biznesimin çökməsi ilə bağlı deyilənlər yalandır. Mağazamız əvvəlki kimi fəaliyyətini davam etdirir".

# Mollalara təmtəraqlı yaslarda iştirak qadağası qoyuldu

## Əks halda, onları da 2 min manat cərimə gözləyir

**Azərbaycanda yas mərasimlərinin təmrəraqla keçirilməsi son illər dəb halını alıb. Nəticədə dünyasını dəyişənin yasını tutmaq bir tərəfdə qalır, ölü yiyəsi 3, 7, 40 mərasimlərini necə verəcəyinin dərdini çəkir.**

Əksər hallarda ölü sahibi "qonşudan geri qalma" prinsipi ilə hərəkət edərək borca düşür. Bu isə olur ikitərəfli yas...

Məsələ ciddi problemə çevrildiyindən bir neçə müddətdir ki, cəmiyyətdə müzakirə mövzusu olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsələyə son kəskin reaksiyasından sonra ayrı-ayrı dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, səlahiyyətli şəxslər fakta etinasız yanaşmırlar.

Bütün bunları nəzərə alan Qafqaz Müsəlmanları İdarəsinin yas mərasimlərində baş verən israfçılığın qarşısını almaq üçün verdiyi bəyanat öz səmərəsini verməyə başlayıb.

Artıq ölkənin ayrı-ayrı bölgələrində qaldırılan məsələnin həlli üçün konkret addımlar atılır.

Qarabağ bölgəsində bir neçə rayonda olan modern.az əməkdaşının apardığı müşahidələr belə deməyə əsas verir.

Məlum olub ki, yas mərasimlərində iştirak edən mollalara ciddi xəbərdarlıq edilərək bildirilib ki, süfrədə müəyyən olunmuş təamlaradan əlavə yeməklər verilərsə, mollalar həmin mərasimlərə qatılmaqdan imtina etsinlər. Bunun əksini edənləri isə nə az, nə çox, düz 2 min manat məbləğində cərimə gözləyir.

Məsələdən hali olan din xadimləri cəriməyə düşməmək üçün qoyulan qaydalara ciddi riayət etdiklərini söyləyiblər. Beləcə hüzr sahibi də birmənalı olaraq yasın mollasız keçməməsi üçün "dəb"i bir kənara qoymağa məcbur olur.

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsi yas mərasimlərində israfın əleyhinə olduğu barədə və bu mərasimlərin sadə şəkildə keçirilməsi ilə bağlı tövsiyələr verib.

Bu mövqe Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurasının üç il öncə, 13.07.2011-ci il tarixində təmtəraqlı toy-yas mərasimlərinin keçirilməsi ilə bağlı ictimaiyyətə ünvanladığı müraciətdə öz əksini tapmışdı. QMİ dini baxımdan bəyənilməyən israfın hər zaman əleyhinə olduğunu və bu istiqamətdə atılan addımları dəstəklədiyini bildirib.

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

# Prokurorluq Səidi Nurinin niyə ölkədən buraxılmadığına aydınlıq gətirdi

## “Freedom House” rəhbəri və keçmiş səfir ABŞ vətəndaşını müdafiə etdi; **Müzəffər Baxış: “**Onun səhvi orda olub ki...”

**Xəbər verildiyi kimi, Bakıda səfərdə olan azərbaycanlı mühacir, Amerika vətəndaşlığını qəbul etmiş Səid Nurinin ölkədən çıxışına qadağa qoyulub. Sentyabrın 4-də Heydər Əliyev Hava Limanından Ukraynaya getmək istəyən Səid Nurini təyyarəyə buraxmayıblar. Rəsmi qurumlar S.Nurinin ölkədən çıxışına qadağa qoyulduğunu təsdiqləsələr də, bunun səbəbini açıqlamayıblar.**



**S.Nuri** AzadlıqRadiosuna bildirib ki, Vaşinqtonda da vəziyyəti bilirlər: “Məncə, bu, siyasi motivlidir. Ancaq dəqiq hansı ittiham olacaq, deyə bilmərəm. Bu, artıq hakimiyyətin fantaziyasına uyğun bir şey olacaq. Mənim atam xəstə idi və ailə üzvlərimi görməyə gəlmişdim. Atamın xəstəliyi ilə bağlı xəbəri alanda mən Ukraynada rəsmi səfərdə idim. Orada Azərbaycan səfirliyinə yaxınlaşdım və viza istədim. Öncə dedilər ki, iki gün ərzində viza veriləcək.

Bir həftə keçdi, vermədilər. Sonra bildirdilər ki, Azərbaycanda hansısa qurum mənim ölkəyə gəlməyimi istəmir. Bu haqda Vaşinqtonu, Dövlət Departamentini məlumatlandırdıqdan sonra mənə viza verdilər. Əvvəl ölkəyə buraxmırdılar, indi də ölkədən buraxmırlar".

**S.Nuri qeyd edib ki, 2003-cü ildən siyasi proseslərin içindədir:** “Mənim bu hakimiyyətə qarşı mövqeyim həmişə müxalif olub. Ölkədən də siyasi mühacir kimi çıxmışam. Mən öz siyasi fəaliyyətimi kifayət qədər məhsuldar hesab etmirəm. Bilmirəm, mənim hansı fəaliyyətim bunları qıcıqlandırıb ki, beynəlxalq qalmaqala səbəb olacaq addım atıblar. Mənə qarşı ittiham nə olacaq, bilmirəm. Rəsmi açıqlama gözləyirəm. İstənilən qərara hazıram, heç nədən qorxmuram. İstər həbs olsun, istər deportasiya. Vəkillərlə məsləhətləşirəm. Ciddi işlər görüləcək. Bu qadağa xırda məsələ deyil, hakimiyyətə başağrısı gətirəcək”.

**Hüquqşünas Müzəffər Baxış** S.Nurinin işi ilə maraqlanıb. Onun sözlərinə görə, gəncin səhvi orada olub ki, Azərbaycan vətəndaşlığından imtina ilə bağlı ərizə yazmayıb və buna dair prezident sərəncamı olmayıb.

**M.Baxış bildirdi ki, Azərbaycan tərəfi S.Nurini hələ də öz vətəndaşı kimi tanıyır: “1998-ci il sentyabrın 30-da ”Azərbaycan Respublikası vətəndaşlığı haqqında" Qanunun 10-cu maddəsi qəbul edilib. Bu müddəaya görə Azərbaycan beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallardan başqa öz vətəndaşını başqa dövlətin vətəndaşının mənsubiyyəti kimi tanımır.**

Səid Nurinin də Azərbaycan vətəndaşlığından çıxması barədə sərəncamı qəbul edilməyib. O, vətəndaşlıqdan çıxmaq üçün müraciət etməliydi və prezident xitam verməliydi. Ancaq belə sərəncam olmayıb".

**Hüquqşünas ona əcnəbi olsa belə, cinayət işi açıla biləcəyini mümkün sayır:** “Ona görə də Səid 15 dövlətin vətəndaşı olsa belə, onu Azərbaycan tərəfi öz vətəndaşı kimi tanıyır. Əgər söhbət cinayət işi açıb, ölkədən çıxışına qadağa qoymaqdan gedirsə, bunu lap əcnəbi də olsa edə bilərlər”.

**Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a göndərilən məlumatda deyilir:** “Azərbaycan vətəndaşı, 23 oktyabr 1981-ci ildə Bakı şəhərində anadan olmuş və hazırda Bakı şəhəri, Xətai rayonu, Vunq Tau küçəsi, ev 11, mənzil 9 ünvanında qeydiyyatda olan Nuriyev Səid Fikrət oğlunun hərəkətinin müvəqqəti məhdudlaşdırılması Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq edilən cinayət işi ilə bağlıdır”.

Baş Prokurorluq onu da qeyd edib ki, S.Nuriyev Azərbaycan Respublikası vətəndaşlığından çıxması ilə bağlı müvafiq dövlət orqanına müraciət etməyib. Qüvvədə olan qanunvericiliyə görə, bu halda Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyəti S.Nuriyevə münasibətdə tanınmır.

**Artıq rəsmi Vaşinqton S.Nurinin Bakıda saxlanmasına reaksiya verib. ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin vəziyyəti “Turan”a şərh edərkən bunları bildiriblər:** “Bizdə məlumat var ki, ABŞ vətəndaşının Azərbaycandan çıxmasına qadağa qoyulub. Biz xaricdəki ABŞ vətəndaşlarının hüquqlarını təmin etmək üçün mümkün konsul tədbirlərini həyata keçiririk. Keçirilən tədbirlərin detalları açıqlana bilməz”.

**“Freedom House” hüquq-müdafiə təşkilatının rəhbəri Devid Kramer də baş verənləri “Turan”a şərh edib:** “Azərbaycan hakimiyyətinin ABŞ vətəndaşı Səid Nurini ölkədən buraxmaqdan imtina etməsi bizim təşkilatı narahat edir. Biz onun dərhal buraxılmasını, bundan öncə isə lazımı tibbi, hüquqi və digər yardımla təmin olunmasını, onun ABŞ səfirliyi, ailəsi ilə və digər əlaqələrinin məhdudlaşdırılmamasını tələb edirik”.

**ABŞ-ın Bakıdakı keçmiş səfiri, hazırda Meyson Universitetinin professoru Riçard Kozlariç isə deyib ki, hakimiyyət Azərbaycanda tənqidi səsləri susdurmaq üçün saxlanma və həbslərə davam edirir:** “İş o yerə çatıb ki, xəstə atasına baş çəkməyə gəlmiş ABŞ vətəndaşını saxlayırlar. Və bu məqamda da Azərbaycan prezidentinin ABŞ-ın dövlət katibi ilə görüşü keçirilir”.

**Qeyd edək ki, S.Nuriyev keçmiş “Yeni Fikir” Gənclər Təşkilatının sədr müavini olub.**

❑ **Emil SALAMOĞLU**

# "Freedom House" Azərbaycan hökumətinə qarşı sanksiyalara çağırır

## **Devid Kramer:** “Təəssüf ki, Azərbaycan özünü bu qlobal Maqnitski qanununa layiqli namizədə çevirir”

**Mərkəzi qərargahı ABŞ-da olan “Freedom House” insan hüquqları təşkilatının rəhbəri Devid Kramer Azərbaycan hökumətinə qarşı sanksiyaların tətbiqinə çağırır. O, “Amerikanın səsi” radiosuna deyib ki, Belarus 10 ildir Lukaşenko rejiminin törətdiyi insan haqları pozuntularına görə sanksiyalarla üzləşir:**



Devid Kramer

“2012-ci ildə qəbul edilmiş Maqnitski *(həbsdə işgəncələrdən ölmüş rusiyalı hüquqçu - red.)* aktı isə insan haqlarını pozan Rusiya məmurlarını hədəf alır. Belarusda söhbət 9-10 siyasi məhbusdan, Rusiyada isə "Memorial" cəmiyyətinin hesablamalarına əsasən, 45 adamdan gedir. Amma əhalisi Rusiyadan qat-qat az olan Azərbaycanda siyasi məhbusların sayı 100-ü ötüb. Baş verən basqılar fonunda Azərbaycana baxmağın vaxtı gəlib çatıb. Zənnimcə, Konqres insan haqlarını pozan məmurlara qarşı qlobal Maqnitski qanununu qəbul etməlidir. Təəssüf ki, Azərbaycan özünü bu qlobal Maqnitski qanununa layiqli namizədə çevirir. Biz bu sanksiyaları Belarusa, Rusiyaya tətbiq etmişik. Axı niyə Azərbaycanla fərqli şəkildə rəftar olunmalıdır?"

**Devid Kramer əlavə edib ki, Azərbaycan Avropa Şurasının insan haqları standartlarına yaxın da gəlmir:** ""Freedom House" təşkilatının sorğularında Azərbaycan azad olmayan ölkələr sırasında sonuncu yerlərdən birini tutur. O, qismən azad ölkələr qrupuna heç yaxın da deyil. Xeyli aşağıdadır.

Enerji, iqtisadi və təhlükəsizlik maraqları baxımından Azərbaycan ABŞ üçün əhəmiyyət kəsb edir. Azərbaycan Əfqanıstana tranzit ölkə olaraq əks-terrorizm səylərində iştirak edir. Azərbaycan rəsmiləri hər gün hamıya xatırlatmağı sevirlər ki, onlar çətin qonşuluqda fəaliyyət göstərirlər. Amma bunlar Azərbaycan rəhbərliyinin hüquq pozuntularına bəraət qazandırmır. Bu mənada Azərbaycan bizim rəhbər tutduğumuz dəyərlərdən uzaqlaşır. Basqılar həyata keçirən, öz iradəsini zorakılıqla tətbiq edən və sivil cəmiyyət məkanını məhdudlaşdıran hökumətlə münasibət saxlamaq çətin olur. Mənim qənaətim budur ki, ABŞ rəsmiləri Azərbaycandakı basqılardan əsəb keçirirlər. Sabiq səfir Riçard Morninqstar Azərbaycandakı basqılardan narazılıq ifadə edirdi. Bu cür olaylar bizim üçün normal münasibətlər saxlamağı çətinləşdirəcək. Azərbaycan hökumətinin beynəlxalq standartları rədd etməsi, onları pozması və Avropa Şurasını öz davranışı ilə məsxərəyə qoyması durumu çətinləşdirir".

# Magistrlərə əsgərlik möhləti veriləcəkmi?

## **Mikayıl Cabbarov:** “Bu məsələdə iki həqiqət var”



**Təhsil naziri Mikayıl Cabbarov magistratura pilləsi üzrə təhsil alan gənclərə hərbi xidmətdən möhlət hüququnun verilməsi ilə bağlı məsələyə münasibət bildirib. APA-nın xəbərinə görə, təhsil naziri Mikayıl Cabbarov “Xaricdə Təhsil Alan və Məzun Olmuş Gənclərin Beynəlxalq Forumu” İctimai Birliyinin (ASA-İF) Bakıda keçirilən XII Forumu çərçivəsində keçirilən panel müzakirələrdə çıxışı zamanı deyib ki, bu məsələ çox aktualdır:**

“Bu mövzu parlamentdə də müzakirəyə çıxarılıb. Bu məsələdə iki həqiqət var. Birinci həqiqət ondan ibarətdir ki, biz məsələyə sırf təhsil prizmasından yanaşmalıyıq. Təhsildə müəyyən fasilələrin verilməsi fəsadların yaranmasına gətirib çıxarır. Bu bir həqiqətdir. Digər həqiqət ondan ibarətdir ki, Azərbaycan müharibə şəraitindədir. Müvəqqəti atəşkəs var. Bu zaman ümummilli maraq məsələsi əsas götürülməlidir. Biz bu istiqamətdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Müdafiə Nazirliyi ilə işçi səviyyədə müzakirələr aparırıq. Düşünürəm ki, birlikdə işləyərək ümumi məxrəci tapa biləcəyik. Bu, dövlət və cəmiyyət üçün mühüm məsələdir. Dövlət orqanları bu məsələ üzərində çalışır. Əmin ola bilərsiniz ki, yekunda hərtərəfli təhlil olunmuş bir qərar veriləcək”.

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

# "Əmri restoran rəhbəri şəxsən verdi: "Qırın bunları"...

# "Oazis" davasından yeni şok xəbərlər

## Əməkdaşımız qanla bitən ad gününün iştirakçıları ilə görüşdü; Obyektin mühafizəçilərinin Avropa və dünya çempionu olduqları iddiası var; Vasif Şəfiyev: "Aşpazlar manqaldan şişi götürüb üstümüzə hücum çəkdilər..."

**Bakının məşhur restoranlarından sayılan "Oazis"də baş verən kütləvi dava ilə bağlı hər gün ortaya yeni xəbərlər çıxır. Restoran rəhbərliyi davanın səbəbkarları kimi bir ailə məslisinə toplaşanları günahlandırmışdı.**

Musavat.com sentyabrın 4-də qarşı tərəfin hadisə ilə bağlı dediklərini, habelə onların yaydığı videonu oxuculara təqdim etdi. Sentyabrın 5-də isə əməkdaşımız ad günü məclisinin təşkilatçısı Zaur Əsgərovun müalicə olunduğu 1 saylı Təcili Tibbi Yardım Xəstəxanasında olub, məclis iştirakçıları ilə görüşüb. Bir neçə nəfərin yaralanıb, iki nəfərin polis tərəfindən saxlanması ilə nəticələnən davanın təfərrüatlarını onların təqdimatında oxuculara çatdırırıq.

### Vasif Şəfiyev: "Bizə dedilər ki, bura sizin üçün .... deyil..."

**Öncə ondan başlayaq ki, xəstəxanadan bizi görüş saatı olmaması bəhanəsi ilə Z.Əsgərovla şəxsən görüşməyə qoymadılar. Amma məclisin iştirakçılarından, Z.Əsgərovun dostu, ailənin yaxını olan Vasif Şəfiyev bizi məlum hadisə günü baş verənlərlə bağlı məlumatlandırdı. Onun sözlərinə görə, əslində bütün hadisə restoran mühafizəçilərinin tərbiyəsizliyindən sonra başlanıb:** "İlk dəfə zalda oynayanda mühafizəçi mənimlə Emilə yaxınlaşdı. Dedi ki, bura sizin üçün - çox əxlaqsız bir ifadə işlətdi - deyil. Biz də dedik ki, bilirik, ailəmizlə gəldiyimizi dedik. Ondan sonra əl-üzümüzü yumaq üçün getdik. Qayıdandan sonra bizim Zaur Əsgərovla - hansının ki, oğlunun ad günü idi - iki mühafizəçinin çölə çıxdığını gördük. Çöl qapısının yanında söhbətləşməyə başladılar. Zaur onlardan soruşdu ki, mənim qonaqlarımdan nə istəyirsiz, axı biz ailə ilə gəlmişik. Öyrəndik ki, Zaurgil bayıra çıxmazdan əvvəl içəridə də bəzi söhbətlər olub. Bütün ailə, Zaurun anası, digər qohumlar da bunu təsdiqləyə bilərlər. Hər şey qaydasında getdiyi bir vaxtda çöldə bir nəfər kənar adam çıxıb Emil Tumasova *(məclis iştirakçılarından biri, ciddi xəsarət alıb-müəl.)* təhqiramiz bir söz dedi və yumruq atdılar. Ondan sonra hər şey idarədən çıxdı və Emilin qaşını partlatdılar. 6-7 santimetr qaşı açıldı. Bu zaman yenə vəziyyət nəzarətdən çıxdı. Biz çöldə 5 nəfər idik. Heç kimimiz yox idi, hər tərəfdən vururdular. 5-5, 3-3 tökülüşürdülər".

**Müsahibimiz restoran sahibi olan Mirtalıb Mirioğlunun hadisə yerində olduğunu bildirdi. Onun sözlərinə görə, hadisəyə müdaxilə edən restoran sahibi öncə öz mühafizəçilərini qovub və onlara "müştərini döymək olmaz" deyib. Amma ardınca yenə də hadisələr nəzarət altından çıxıb:** "Hacı gedəndən sonra hər şey sakitləşdi. Keçdik stol arxasına, su içdik, Zaurun atası ilə danışdılar. Dedilər, qoy restoran boşalsın, danışaq. Lazım olsa sabah gələrsiz. Lazım olar bağışlayarsız, olmaz bağışlamazsız. Bu an biz stola keçdik. Emilin qanlı köynəyini dəyişdilər. Orda ona başqa köynək verdilər. Biz masa arxasına keçən kimi tortumuzu verdik ki, kəssinlər. Masaya oturan kimi Emildən yenə qan açıldı. Hacı yanımızda idi. Emil qanının açılmasından əsəbləşib dedi ki, mən də qanımı yerdə qoymayacam. Bu yerdə ofisiant qayıtdı ki, ə, qoduq, bəsdirin də, siz qudurdunuz artıq". Müdirin yanında butulkanı vurdu və ondan sonra dava davam etdi. Həmin vaxt Zaurun yoldaşı yerə yıxıldı".

### "Zaurun yoldaşı o qədər qısqancdır ki, o, heç zaman başqa xanımla rəqs etməz... "

**Müsahibimizdən insidentin başlanmasına səbəb olan rəqs məsələsini soruşduq. Məlumdur ki, restoran rəhbərliyi bu qrupun, xüsusən də ad günü sahibi Zaur Əsgərovun yan masada əyləşən gənc xanımları narahat etdiyini, onlarla rəqs etdiyini, üstəlik, rəqs edərkən köynəyinin yaxasının açıq olduğunu iddia etmişdi. V.Şəfiyev bu iddianın gülməli olduğunu bildirdi:** "Zaur bəyin yoldaşı çox qısqancdır. Məktəb vaxtlarından bir-birini sevib evləniblər. O qədər böyük sevgi və təbii qısqanclıq qarşısında heç vaxt Zaur gedib yan masadan hansısa xanımla rəqs etməz. Masamızdakı subay oğlanlardan biri - Emil Tumasov meydanda oynayanda orda xanımlar da olub, birgə oynayıblar. Amma yaxasının açıq olması iddiası ağ yalandır. Fotolardan da göründüyü kimi, yaxası iki düymə açıq olub. Lap ondan bir düymə də aşağı açıq olsa, onların dediyi kimi biədəb görüntü ola bilməzdi. Biz İranda yaşamırıq ki, xanımlarımıza zorla hicab geyindirək. Kim necə istəyər, elə geyinər".

### "Aşpaz manqaldan şişi çıxarıb Zavidin qoluna keçirdi"

**Keçək digər iddiaya. Məlum, restoran rəhbərliyinin ilkin iddiasında bu masadakıların menyüdə içki olmamasına baxmayaraq, ofisiantdan içki istəməsi və davanın bu səbəbdən baş verməsi yer alırdı. Hərçənd ki, sonradan iddialar "açıq yaxa" və "qonşu masadakı qadın" məcrasına yönəldi. V.Şəfiyev bunu da inkar edir:** "Biz içkini özümüzlə gətirmişdik. O boyda məclisdə cəmi iki ədəd yarım litrlik arağımız vardı. Özü də biz getdiyimiz bütün restoranlara özümüz içki də aparırıq. Biz onlardan niyə içki istəyək ki? Hacı adamdır, restoran açıb, içki vermir. Amma bunun əvəzində restoranda göbək rəqsinə qədər hər şey oynayırlar. Daha sonra deyirlər ki, guya biz hesabı ödəməmək üçün əvvəlcədən dava salmışıq. Bu, biabırçı bir iddiadır. Daha bir yalan da odur ki, içkili olduğumuz üçün dava salmışıq. Axı o saatda insan o qədər içkili ola bilməzdi. 8-ə 15 dəqiqə qalmış biz restoranda oturduq. 9-da narazılıq başladı. Biz orda ailə ilə idik. Nə qədər içsək də, o dərəcədə keflənə bilməzdik. Zaurun atası nəvəsi ilə oynayır, içəridə həbs olunan Ravid Zaurun anası ilə vals oynayırdı. Heç kəs onların dediyi kimi içkili deyildi".


Münaqişə zamanı dişləri qırılmış Emil Tumasov


Emil Tumasov: "Hamısı eyni vaxtda üstümə hücum çəkdilər"


Vasif Şəfiyev: "İzah etsinlər ki, 3 nəfər necə 60 nəfəri döyə bilərdi?"


3 yaşlı oğlunun gözü qabağında döyülərək ayağı qırılan Zaur Əsgərov

**Bu yerdə üz-gözü sarğıda olan, aldığı zədələrdən dolayı danışmaqda çətinlik çəkən Emil Tumasov (fotolara diqqət) söhbətə qısa bir əlavə etdi:** "Oranın mühafizəçiləri Avropa və dünya çempionlarıdır. Bizə də deyirlər ki, guya biz onları döymüşük. Onda gərək gələn il çempionata biz çıxaq".

### "Davanın böyüməməsi üçün bizi niyə polisə vermədilər?"

**V.Şəfiyev ofisiantın hovuza atılması iddiasına da aydınlıq gətirdi. Dedi ki, "Oazis" ancaq özünə sərf edən görüntüləri yayır:** "Amma onlar Ravid Abdullayevin şişlə vurularaq, sonra da hovuza atılmasını demirlər. Kamera eyni şeyi çəkə bilirsə, hər iksini çəksin. Əsas kadrı çıxarsınlar ortaya. Aşpazın manqaldan şişi çıxararaq Ravidi necə vurmasını göstərsinlər. Adamın qolu yaralandı, ikinci dəfə hovuza düşdü. Ona baxmayaraq, qoluna tikiş qoydular. Bölmədə izahat verəndən sonra ondan heç bir xəbər çıxmadı. Hardadır, necədir, yarası hansı vəziyyətdədir, bilinmir. Hətta öyrəndiyimizə görə, sarğısı baxılmaq üçün açılıb, sonra yenidən bağlanmayıb. Videoda bizimkilərdən iki nəfər var - Zaur və Ravid görünür. İkisi də yaralıdır. Axırda o da gəlib dizi üstə çöküb yıxılır".

**V.Şəfiyev deyir ki, restoranın o qədər sayda mühafizəçisi, ofisiantı 4-5 nəfərin üstünə hücum çəkmək yerinə, polisə, xəstəxanaya müraciət etməliydi:** "Olmazdı ki, davanın böyüməməsi üçün bizi tutaydız, verəydiz polisə? Niyə polisi, təcili yardım maşınını içəri buraxmırdılar? Emilin kadrları niyə çıxmır ortaya? Çünki Emil hər yerdə ayaq altında, qan içində idi. Bizdən 3 nəfər yaralı idi. Biri Emildir, bu gün Tusi adına Klinikada tomoqrafiyadan keçib. Beynində iki qan laxtalanması var. Bu, artıq çox ciddi nüansdır. Beyinə olan xəsarətləri restoran müdiriyyəti heç nə ilə ödəyə bilməz. Ailənin tək oğludur, bunun arxasında dayanmaq var... Zaur - 3 yaşlı uşağın atası xəstəxanada müalicə alır. Gipsdə qalıb, onurğa sümüyündə ağrılar var. Ravid qolundan xəsarət alıb, amma həbsdədir. Ondan heç bir xəbər yoxdur. Həqiqətən də təəccüblüdür ki, biz ordan sağ çıxa bildik. Amma bunlar yaralı adı ilə başının arxasına bir pambıq yapışdırılmış ofisiantı qoyublar ortaya ki, guya ona xəsarət dəyib. Lənət şeytana, mən hamıdan soruşuram: 3 nəfər 60 nəfəri necə döyə bilər? Bu, nə məntiqlə mümkündür, nə fiziki güclə".

**Xəstəxanada Z.Əsgərovun xalası *(adının çəkilməsini istəmədi-müəl.)* ilə də söhbətləşdik. Bildirdi ki, o qədər xanımın oturduğu masada heç kim ədəbsiz hərəkət edə bilməzdi:** "Emil cavan, subay oğlandır, ortaya çıxıb oynayanda qızlar da bununla oynayıblar. Əgər bizdən kiminsə o xanımlara qarşı nəsə pis bir hərəkəti olsaydı, dərhal onu da yayardılar. Orda sataşma olsaydı, çəkib verərdilər. Hətta masadakı dostları zarafatla Emilin qızlarla oynamasını çəkdi ki, nişanlına göndərəcəyik. Hər şey bu qədər səmimi olmuşdu. Bu rəqs söhbəti davadan bir saat qabaq olmuşdu, davaya nə aidiyyəti var idi ki?"

### Zaur Əsgərovun atası Mahir Əsgərov: "Hacının əmrindən sonra aşpazlar əllərində şişlə çıxdılar bayıra"

**Z.Əsgərovun atası Mahir Əsgərov isə hadisənin günahkarı kimi restoranın sahibini görür. Müsahibimiz bildirdi ki, məclis çox sakit, şad əhval-ruhiyyədə başlayıb:** "Mənim nəvəmin ad günü idi. Hardasa yarım saatdan sonra gəlinlə oğlum durub oynadılar. Mən də bu zaman öz nəvəmi gəzdirirdim. Sonra gördüm ki, Zauru bayıra çıxardılar. Mən də arxasınca çıxdım. Gördüm ki, oğlumla birgə 3-4 nəfər mühafizəçi orda dayanıb. Məsələnin nə olduğunu soruşdum. Zaur dedi ki, ona "yanındakı o qadının geyiminə fikir ver" deyiblər. Zaur da deyib ki, qadın mənim yoldaşımdır, geyimi də açıq deyil. Bu söhbətin üstündə mübahisə başlandı. Mən hiss elədim ki, onlar bizə sataşmaq istəyirlər. Özü də orda mühafizəçilərin bir neçəsi içkili idi. Bunu polisdə də dedim, ərizəmi götürmədilər. Mən tələb etmişdim ki, bu insanlar yoxlanılsın. Ərizəmin yerinə məndən izahat aldılar. Sonra mübahisə böyüdü. Onların bütün personalı - 60-70 insan birdən-birə davaya necə qoşuldular. Siz gərək orda o işçilərin bizə boşqab atmalarını görəydiz. Hacı müəllim *(restoranın sahibi Hacı Mirtalıb Miroğlu)* onlara boşqab atmağı öyrədib. Hacı müəllim bilməliydi ki, 3 yaşlı uşağın, gəlinlərin qabağında bunu etməzlər. O uşağın 3 yaşı var, hələ danışa bilmir. Amma mən sizi inandırıram ki, 10 yaşına qədər o uşaq danışa bilməyəcək. Heç bir ataya, anaya qismət olmasın".

### "Deyir, mənim pulum var, varım var... "

**M.Əsgərov söhbət zamanı daha bir yeni detalı açıqladı. Dedi ki, dava zamanı Hacı Mirtalıb Miroğlu şəxsən işçilərinə göstəriş verib:** "Hacı işçilərinə əmr verdi ki, qırın bunları. O, bunu deyəndə mən Hacının yanında idim. Ona dedim ki, Hacı, ayıbdır, bunları yığışdırın, siz müəssisənin müdirisiz. Onun bu əmrindən sonra aşpazlar da əllərində şişlərlə bayıra çıxdılar. Dayandım baxdım. Bir də ki, 102-yə məlumatı mən verdim, onlar yox. Hacı insanlarla pulla danışır. Deyir, mənim pulum-varım var. Mən Azərbaycan vətəndaşıyam, dövlətimə də inanıram. İmkanım da zəif olsa, özüm də fəhlə insan olsam, dövlətimə inanıram. Hacının dediyi pul bu dövlətdə keçməyəcək. Hacı bilməlidir ki, biz də insanıq. Biz balamızı qanın içində gördük.

Maraqlanın görək, onların yaralıları nə zaman xəstəxanaya yerləşdirilib. Başının arxasına bir pambıq yapışdırılmış ofisiantı yaralı kimi təqdim edirlər. Amma bizim uşaqlar ciddi travmalarla, beyin silkələnməsi ilə qalıb ortada. Onlar eşidəndən sonra ki, bizdə yaralılar var, öz adamlarını göndərdilər xəstəxanaya. Ora düşmə tarixləri, kağızları var".

**Bütün bu olanları qarşı tərəfin dilindən dinlədikdən sonra bir çox oxucunun ağlına gələn o məlum sualı verdik: "Oazis" rəhbərliyinin sizinlə nə kimi qəsd-qərəzliyi vardı ki, belə bir qanlı olayın baş verməsinə səbəb oldular? M.Əsgərov dedi ki, bu, "Oazis"də baş verən saysız-hesabsız davalardan sadəcə biridir:** "Restoranın qabağında taksi sürücüləri dayanıb. Siz onlarla maraqlansaz eşidəcəksiz ki, ayda ən azı 3-4 belə böyük dava baş verir, amma sonradan bağlanır. İnternetdə "Oazis"də dava videolarını axtarın, görün neçə belə video çıxacaq".

**Yaralanmış Emil Tumasovun atası Rafiq Tumasov da bizimlə söhbətində restoran sahibini ittiham etdi. "Biz İran İslam Respublikasında yaşamırıq" deyən ata insanların geyiminə qarışılmasını, onlara bu yolla zor edilməsini qanunsuzluq adlandırdı:** "Sabah bu hadisə hamının başına gələ bilər. Birinin qıçını sındırıblar, mənim oğlum beyin travması alıb. Bu uşaqların səhhəti sıradan çıxsa, iş qabiliyyətlərini itirsələr, kim onlara cavabdeh olacaq? Hərə bir qoçu dəstəsi saxlayacaqsa, onda qanunlar nəyə lazımdır? Oğlumun 5 dişi qırılıb, beynində gimatoma var. Bunun hesabını kim verəcək?"

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

# Rusiyada azərbaycanlıların kütləvi deportasiyasına başlandı

## Moskvada təhsil alan onlarla tələbəyə ölkəyə giriş qadağan olunub, geri qaytarılanlar "Yeni Müsavat"a danışdılar

**Azərbaycanlılar kütləvi şəkildə Rusiyadan deportasiya olunurlar. Sentyabrın ilk günlərindən başlayaraq Moskvada təhsil alan onlarla tələbəmiz, o cümlədən burada işləyən soydaşlarımız ölkədən çıxarılırlar.**



Bu barədə "Yeni Müsavat"a barəsində 3 illik deportasiya qərarı çıxarılan tələbə **Səbinə Verdiyeva** danışdı.

Onun sözlərinə görə, Moskvada Dilçilik Universitetində 3-cü kursda oxuyur. S.Verdiyeva Rusiya səfirliyinin xətti ilə təhsil almağa gedib, ona tələbə təqaüdü verilir, yataqxana ilə təmin olunub. Ancaq azərbaycanlı tələbə heç bir əsas olmadan deportasiya olunub: "Bizi heç vaxt belə narahat etməyiblər. Bu günə kimi də problem olmayıb. Mən sentyabrda təhsilimi davam etdirmək üçün Moskvaya getdim. Ancaq səbəb göstərmədən deportasiya etdilər. Guya qeydiyyatdan keçməmişik.

Bu problemlə üzləşən tək mən deyiləm. Mənimlə bərabər bizim universitetdən başqalarını da deportasiya ediblər. Tək tələbələri yox, işləməyə gedənləri də çıxarırlar. Bizim fakültənin dekanı sənədləri hazırlayır. Universitet bizimlə maraqlanır. Deyirlər ki, narahat olmayın".

**Deportasiya olunan başqa bir tələbə - Moskva özəl universitetinin məzunu Güntək Məmmədov da "Yeni Müsavat"a bildirdi ki, diplomunu almağa gedib:** "Universitetdən demişdilər ki, sentyabrda gəlib diplomunuzu götürün. Məni Moskva gömrüyündə saxladılar və tranzit zonaya çağırdılar. Mənə imzalamağa akt verdilər və 2017-ci ilə qədər deportasiya olunduğumu bildirdilər. Guya qeydiyyatdan keçməmişəm və 30 gün artıq qalmışam. Bu, tamam cəfəngdir. Çünki 2016-cı ilə qədər qeydiyyatım var. Məni təyyarəyə mindirib, geri qaytardılar. Bakıda Rusiya səfirliyinə getdik. Səfirlikdən dedilər ki, onlar yalnız Rusiya vətəndaşlarının problemlərini dinləyirlər və Dövlət Miqrasiya Xidmətinə müraciət etməyi məsləhət gördülər".

**G.Məmmədov təkcə tələbələrin deportasiya olunduğunu düşünmür:** "Hər gün deportasiya edirlər. Onlara qeyri-rəsmi əmr verilib ki, hər gün deportasiya qərarları olsun. Mənimlə birlikdə iki orta yaşlı adam da deportasiya olunmuşdu". Məsələ ilə bağlı Xarici İşlər və Təhsil nazirliklərindən cavab almaq mümkün olmadı.

❑ **E.SALAMOĞLU**

# Pərviz Həşimlinin qaynı qətlə yetirildi

**Həbsdə olan jurnalist Pərviz Həşimlinin qaynı Kamil Rüstəmov bıçaqlanaraq qətlə yetirilib. Hadisə Göygöl rayonu ərazisində baş verib.**

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bizimyol.info saytına bildirib ki, Kamil Rüstəmov rayonun Quşqara kəndi ərazisində - Quşqara çayının kənarında Ürfan Rzayev adlı şəxslə şəxsi münaqişə zəminində mübahisə edərək dalaşıb. İnsident zamanı Ürfan Rzayev bıçaqla Kamil Rüstəmovun qarın və sinə nahiyəsindən 2 zərbə vurub. Ürfan Rzayevin özünün də müxtəlif bədən xəsarətləri olub.




Kamil Rüstəmov

Hər iki şəxs Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına çatdırılsa da, K.Rüstəmov xəstəxanada dünyasını dəyişib. Ü.Rzayev isə reanimasiya şöbəsinə yerləşdirilib. Faktla bağlı Göygöl Rayon Prokurorluğunda AR Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

# Naxçıvanda döyülən hüquq müdafiəçisi danışdı

## İlqar Nəsibov: «Öldüyümü zənn edib qaçmışdılar»

**Naxçıvan Şəhər Polis İdarəsində hüquq müdafiəçisi İlqar Nəsibovun döyülməsi ilə bağlı «qəsdən az ağır xəsarət yetirmə» maddəsi ilə cinayət işi açılıb. Cinayət işində təqsirləndirilən şəxs kimi Naxçıvan şəhər sakini Fərid Əsgərovun adı keçir. İlqar Nəsibov avqustun 21-də axşam saatlarında döyülüb. Aldığı zərbələrdən huşunu itirən Nəsibovu hadisə yerinə çağırılan polislər və həyat yoldaşı xəstəxanaya çatdırıb. O, bir neçə gün öncə Türkiyədən müalicədən qayıdıb.**

AzadlıqRadiosu İlqar Nəsibovla müsahibəni təqdim edir:

***- Müalicədən sonra özünüzü necə hiss edirsiz?***

- Yavaş-yavaş normallaşıram. Bir az sinəmdə, başımda, qabırğalarımda ağrılar hiss edirəm. Əvvəlki ağrılar yoxdur. Bir az əsəb sistemimdə problem hiss edirəm. Tez əsəbiləşirəm, sifətimin bir tərəfində keyimə var. Zərbələrin təsirindəndir. Türkiyədə həkimlər dedi ki, sifətimdəki sınıqlar düzələndən sonra əsəblərim də düzələcək.

***- İstintaqdan nə xəbər var?***

- Dünən Naxçıvan Şəhər Polis İdarəsindən müstəntiq çağırmışdı. Getdim, izahat yazdım. Məni zərərçəkmiş şəxs kimi sənədləşdirdilər. Çox yüngül maddə ilə cinayət işi açılıb. Guya az ağır xəsarət almışam. Əslində mənə ağır xəsarətlər yetirilib.



İlqar Nəsibov

***- Bildirmisiniz ki, sizi bir yox, bir neçə nəfər döyüb. Bəs cinayət işində kimlərin adı keçir?***

- Təkcə Fəridin adı keçir. İzahat yazanda da bildirdim ki, mənə birinci zərbəni Fərid vurdu. Huşumu itirib, ayılandan sonra baxdım ki, ofisdən bir neçə nəfər çıxır. Sonra mənim huşum bir də getdi. Ayıldıqda baxdım ki, heç kim yoxdur. Yəqin ki, öldüyümü zənn edib qaçmışdılar.

***- Döyüldüyünüz günü necə xatırlayırsız?***

- Evdə idim. Axşamüstü zəng gəldi. Fərid məni təkidlə ofisə dəvət edirdi. Deyirdi ki, problemi var. Mən təklif etdim ki, şəhərdə görüşək. Təkid etdi ki, ofisə gəlim. Getdim, bu hadisə baş verdi.

***- Fərid sizi evdən çağırıb, təkidlə ofisə dəvət edəndə sizdə şübhə yarandımı?***

- Bir o qədər şübhə yaranmadı. Tanıdığım adam idi. Həmişə məndən ağsaqqal kimi məsləhət alıb. Münasibətlərimiz də pis olmayıb.

***- İstintaqın gedişindən razısınızmı?***

- Yüngül maddənin seçilməsi ondan xəbər verir ki, istintaq obyektiv getmir. Bunu da peşə fəaliyyətimlə bağlayıram. Bu, xüsusi qurulmuş təxribatdır və obyektiv araşdırılacağı inandırıcı görünmür.

***- Bundan sonrakı addımlarınız necə olacaq? Fəaliyyətinizdə dəyişiklik gözlənilirmi?***

- İlk növbədə səhhətimin bərpa olunmasına çalışacağam. Bundan sonra fəaliyyətimi davam etdirəcəyəm. Bir də istintaqın gedişini izləyib, müvafiq addımlar atacağıq. Araşdırma qane etməsə, şikayət edəcəyik.

# Kitab oxumuşluq xəcaləti



Samir SARI

**Bu yaxınlarda yazmışdım ki, hər sözə bir söz qoşmaqda, hər şeyə lağlağı etməkdə əvəzimiz yoxdur. Bir daha təkrar edim ki, elədir, bu sarıdan regionda yekik. Amma ola bilər, Sakit okean hövzəsindəki adalarda, Afrika savannalarında eynilə bizim kimi hər şeyə məzə prizmasından baxan etnik qruplar mövcuddur. Nə biləsən, dünyada 3 minə yaxın xalq var...**

Budur, bir qrup ədəbiyyat, media adamı, kitab azarkeşi belə bir virtual kampaniyaya başlayıblar: hər kəs indiyə qədər oxuduğu kitabların içindən 10 ən bəyəndiyi əsəri seçib "Feysbuk" divarında yazır, estafeti başqalarına ötürür, onlar da yazırlar. Beləcə, məlum olur ki, müxtəlif zövqlərə əsasən ən bəyənilən əsərlər və müəlliflər kimlərdir. Bu kampaniyanın ən maraqlı cəhəti odur ki, adam hansı kitabları oxumadığını, amma oxumalı olduğunu öyrənir və kitab oxumaq təbliğ olunur.

Bu kampaniya start götürəndən bu günə qədər ortaya çıxıb ki, oxucuların azı yarısının kitab zövqü 50 faiz həcmində üst-üstə düşür. Onların çoxunun eyni kitabları və eyni müəllifləri bəyənməsi halları yayğın və təbiidir. Zatən, əksəriyyət özünü, imzasının təsdiq etmiş yazıçıları oxuyur.

Amma bir də görürsən, çox adam bir yazıçını bəyənir, fəqət hər kəs onun başqa bir əsərini daha yaxşı sayır. Məsələn, alman yazıçısı Erix Mariya Remarkın "Zəfər tağı" əsəri çox məşhurdur, amma bəzi oxucular bu romanı yox, onun "Üç dost", "Qərb cəbhəsində yenilik yoxdur" və başqa romanlarını qeyd ediblər.

Eyni şey Tolstoyun, Markesin, Aytmatovun, Drayzerin də başına gəlib. Hamı onların fərqli əsərlərini bəyənir. Bu sahədə yarıyan bircə Lilian Etel Voyniçdir. Onun cəmi bircə əsəri - "Ovod" qeyd olunub. İnsafən, məndən başqa, hamı da o romanı oxuyub. Mən də Voyniçi oxumaq əvəzinə gedib Voynoviçi oxumuşam. Amma o da əla romandır.

İndi problem nədədir? Ondadır ki, oxuyub-bəyəndiyi on kitabı paylaşanlarla yanaşı təxminən o sayda bu kampaniyaya qarşı çıxanlar, lağ edənlər var. Bunlar müxtəlif adamlardır. İçində də doğrudan da oxumuş adamlar var, amma hiss olunur ki, bəzlilərinin bütün ömrü boyu oxuduğu kitabların ümumi sayı 5-ə çatmır. Ona görə də onlardan biri götürüb on ən bəyəndiyi yeməyin adını sıralayır: "Piti, xəngəl, dolma, kabab, plov...".

Eləsi var, inandığı pir və ocaqların ilk "onluğ"unu tərtib edib paylaşıb.

Başqa biri yazıb ki, bu kampaniya başlayandan kitab mağazalarına girənlərin sayı artıb, amma kitab satışı artmayıb, çünki mağazaya girənlər 10 kitabın adını yazıb *(FB-də paylaşmaq üçün)* çıxırlar.

Bir tanınmış qələmə adamı kampaniyanın keçirilməsinin arxasında beynəlxalq imperialist qüvvələrin durduğunu, bunun kapitalist, burjua dünyasının reklamına xidmət edən bir aksiya olduğunu iddia edib və öz iddiasında o qədər ciddidir ki, bir az israr eləsək, qoşa qəzet səhifəsi həcmində sübut-dəlil dolu məqalə yazar.

Başqa biri yazır ki, qeyd olunan kitabların çoxu "Qanun" nəşriyyatının nəşrləridir və bu kampaniyada Şahbaz Xuduoğlunun maraqları olmamış deyil.

Millətçilik edənlər də var: nədən "ən çox bəyənilən 10 kitab"ın siyahısını yayanlar azərbaycanlı müəllifləri qeyd etməyiblər. Əslində bu düzgün fikirdir. Məsələn, mən öz "onluğ"umu tərtib edəndə Əli Vəliyevin "Samovar tüstülənir" kitabı ilə Milan Kunderanın "Varoluşun xəfif yüngüllüyü" romanının arasında qalmışdım, seçim edə, hansına üstünlük verəcəyimi bilmirdim, axırda "Dəli Kür"ü qeyd etdim. Hətta arada istədim ki, Hüseynbala Mirələmovun əsərlərindən birini Drayzerin "Dahi"sinin qabağına keçirim, ona da insaf yol vermədi.

Bir sözlə, sosial şəbəkədə lağlağı tozanağı ərşə qalxıb. Adamlar artıq çox kitab oxuduqlarına görə xəcalət çəkirlər, hətta bəziləri kitab həvəskarı olduqlarını danır, "onluq"larını yaymağa cürət etmirlər.

Əvəzində sevimli spirtli içkilərinin *(pivə, çaxır, araq, konyak, likör, tekila, cin, rom, rakı, kalvados, sake)* "onluğ"unu paylaşanlar var. Yəqin ki, sevimli siqaret növlərini siyahılaşdıranlar da olacaq. Sonrası asandır, Allah nə verdiysə, göz nə görünürsə... ta sevimli modellərə qədər.

Xüləs, belə bir dövran gəlib: getdin, gördün kitab, neynəyirsən, oxumaq, cır vərəqi, bük qutab...





# Səməd Vurğundan Füzuliyə qədər...

## Özünü Enşteynlə bərabərləşdirən Sərdar Cəlaloğluna yeni qanuna görə cəza düşürmü?

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov mətbuata açıqlamasında Azərbaycanda yaradıcı təşkilatların və şəxslərin fəaliyyətini istiqamətləndirən ayrıca qanun qəbul ediləcəyini bildirib. Həmin qanuna görə, tarixi şəxsləri təhqir edənlər cəzalandırılacaq. Bu qanun hələ ki, qüvvəyə minməyib. Maraqlıdır ki, əgər qanun qüvvəyə minərsə, bir neçə gün öncə dahi şair Məhəmməd Füzulini kafir adlandıran ADP sədri Sərdar Cəlaloğluna da şamil ediləcəkmi?**

Xatırladaq ki, bir neçə gün öncə ADP sədri S. Cəlaloğlu müsahibəsində Məhəmməd Füzulini kafir adlandırmış və onun fikirlərinin bizi düzgün tərbiyə etmədiyini bildirmişdi. Həmçinin ADP sədri bir müddət əvvəl şair Səməd Vurğunu da təhqir etmişdi. Siyasətçi müsahibəsində S. Vurğunu "dılğır" adlandırmaqla yanaşı, sonrakı açıqlamalarında da onun barəsində ağır ifadələr işlətmişdi.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa Füzuliyə kafir deməyin təhqir olmadığını bildirdi:** "Azərbaycan dilinin leksikonu imkan verir ki, insanlar kimisə təhqir etmədən tarixi şəxsiyyətlərlə bağlı yanlışları dilə gətirsin. Ona görə də tarixi şəxsiyyətləri qorumaq haqqında qanunun qəbul edilməsi sadəcə olaraq axmaqlıq olardı. Füzuli tarixi yanlış yazılmış, saxta bir tarixdir. Biz əksinə, bu tarixi inkar etməliyik ki, buna yenidən baxılsın. Bu qəhrəmanların böyük əksəriyyətinin əslində sıradan çıxarılması vacibdir. Çünki müstəqilliyə qədərki dövrdə istənilən qəhrəman haqqında bir mif yaratmaq məqbul sayılırdı. Füzuliyə kafir deyilməsi əslində onun təhqir olunması mənasına gəlmir. Amma kafir deyilməsi də yanlışdır. Məncə, Sərdar Cəlaloğlunun bu yanaşması düzgün deyil. O baxımdan doğru deyil ki, Füzuli bütün hallarda dindar olub və dində də belə bir yanaşma var ki, əgər Allahı qəbul edir, ona şərik qoşmursansa və onun peyğəmbərini tanıyırsansa, İslamın beş əsas şərtini qəbul edirsənsə sənə kafir demək yanlışdır. Sərdar Cəlaloğlu Füzuli ilə bağlı dinin prinsiplərinə uyğun olaraq bir tərif verməyib. Amma Füzulinin "Mətləül-etiqad" əsərində kifayət qədər cəhalət elementləri var. Bu cəhalət elementləri də İran din anlayışından qaynaqlanan elementlərdir. Yəni bir sıra məsələlər var ki, onun yanaşması müzakirəyə, mübahisəyə açıqdır. Amma mübahisəyə açıq olsa da onu kafir adlandırmaq tamamilə əsassızdır. Kafirliyin şərtləri tamamilə başqadır. Səməd Vurğuna qarşı münasibətdə də bəziləri şeiri, mövqeyi təhlil etmək əvəzinə adamın şəxsiyyətini təhqir eləmək yolunu tuturlar. Amma hər bir tarixi şəraitdə şəxsiyyətin ata biləcəyi mümkün addımlar var. Səməd Vurğunun da şeirlərini bəyənməmək olar. Amma şəxsiyyətini təhqir etmək yanlışdır və yolverilməzdir. Buna görə ayrıca qanunun qəbul olunmasına da ehtiyac yoxdur. Sadəcə olaraq, onun varisləri mülki məcəllədə olan təhqir və böhtan maddələri ilə məhkəmədə hansısa bir iddia qaldıra bilər. Amma tarixi şəxsiyyətlərə kimsə söz deməsin, yoxsa cəzalanar tipli qanun bizim düşüncə sistemimizi qurudar və bizi yanlış istiqamətə aparar. Biz mütləq tarixi təftiş etməli, baxmalıyıq. Həmin tarixdə də nə faydalıdırsa, onu götürməli, faydasızları isə atmalıyıq. Tutaq ki, mən Babəkizmə Azərbaycan üçün ən zərərli bir təlim kimi baxıram, yaxud da səfəviliyin Azərbaycanı İrana bağladığını və Azərbaycan türk düşüncəsinə böyük zərbə vurduğu fikrini müdafiə edirəm. Bu təhqir deyil, yanaşmadır. Yanaşmanı da məhdudlaşdıranda cəmiyyətimiz çox yanlış bir istiqamətdə yönləndirilə bilər".

**Hüquqşünas Müzəffər Baxış şərəf və ləyaqətin təhqirinə görə cəza nəzərdə tutulduğunu bildirdi:** "Əgər bu tarixi şəxsiyyətlərin varisi olarsa, onlar şərəf və ləyaqətin təhqiri ilə bağlı məhkəməyə ərizə ilə müraciət edə bilərlər. Füzulini deyə bilmərəm, amma Səməd Vurğunun qohumları müraciət edə bilərlər. Çünki təhqir olunan tarixi şəxsiyyətin qohumları da şərəf və ləyaqətin alçaltması ilə bağlı əziyyət çəkmiş olurlar. Böhtan və təhqirdə cinayətin obyekti şəxsin şərəf və ləyaqətidir. Təhqirə görə cəza 500 manatdan 1000 manatadək cərimə, ən yuxarı həddi isə bir ilədək azadlıqdan məhrumetmə cəzasıdır. Əslində bu maddələri cinayət məcəllələrindən çıxartmaq lazımdır".

❑ **Günel MANAFLI**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



ORİJİNAL AKSESUARLAR
Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza



*Əyləncəli, sürətli, asan!*



Speak English
*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər
BONUS
English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!
Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.
(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63
(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



bakcell

# "Ulduzumla Megafun günləri" kampaniyası ilə dəyərli hədiyyələr qazanmaq şansını əldən qaçırmayın!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti, "Ulduzumla Megafun günləri" adlı kampaniya keçirir. Kampaniya çərçivəsində «Megafun» əyləncə mərkəzində Ulduzum kodundan istifadə edən hər 100- cü abunəçi «Ulduzum»tərəfdaşlarından dəyərli hədiyyələrlə təltif ediləcək. «Ulduzum» proqramının istənilən üzvü «Megafun» əyləncə mərkəzində «Ulduzum» kassasından balans kartına yüklədiyi məbləğin 50%-nə qədər bonus hədiyyə əldə etməklə yanaşı, «Ulduzum» tərəfdaşından daha yüksək endirimli kuponlar əldə edəcək. Bütün bu üstünlüklərlə yanaşı «Ulduzum» istifadəçiləri «Megafun» balans kartına yüklədikləri hər 20 AZN üçün 10 dəqiqəlik şəbəkədaxili danışıq üçün bonus dəqiqləri qazanacaqlar.**

**Kampaniyanın müddəti 5 - 25 sentyabr 2014-cü il tarixlərini əhatə edəcək.**

**Kampaniyadan yararlanaraq hədiyyələr əldə etmək üçün «Ulduzum» üzvləri aşağıdakılar nəzərə almalıdırlar:**

**1. «Ulduzum» abunəçisi 5555 qısa nömrəsinə "*" işarəsini göndərir və 4 rəqəmli şifrə əldə edir. Şifrənin əldə olunması üçün göndərilən SMS- in qiyməti 3 qəpik təşkil edir.**

**2. «Ulduzum» üzvü SMS vasitəsilə aldığı şifrəni Megafun kassirinə təqdim edir və «Megafun»- dan 50% bonus və endirim kuponları əldə edir.**

**3. Gün ərzində hər bir abunəçi 10 dəfə «Ulduzum» şifrəsi əldə edə bilər. Alınan hər bir şifrənin etibarlılıq müddəti 24 saatdır.**

**Daha ətraflı məlumat əldə etmək üçün "777" yazıb 5555-ə pulsuz SMS göndərin.**

**Ulduzum proqramına üzv olmaq üçün "1" yazıb 5555 nömrəsinə pulsuz SMS yollamaq yetərlidir.**

**Tədbirə qoşulmaq üçün bu linkdən istifadə etmək olar: https://www.facebook.com/events/713303595415327/**

**Yaradıldığı gündən etibarən bir ildən az müddət ərzində Ulduzum proqramına 500.000-dən çox abunəçinin qoşulması və partnyorların müxtəlif təkliflərdən faydalanması bu proqramın uğurlu olmasının bir göstəricisidir.**

**Hazırda 120-dən çox partnyoru olan bu proqramın partnyorları siyahısında seçilmiş restoranlar, dəbdəbəli geyim, aksessuar, ətriyyat, mebel, məişət cihazları və elektrotexnika mağazaları, sağlamlıq, idman və istirahət mərkəzləri və bir sıra xidmət məntəqələri var.**

**www.ulduzum.az saytında «Ulduzum» proqramının partnyorları siyahısı, onların təklif etdiyi endirimlər və daha ətraflı məlumatı əldə etmək olar.**

YENİ MÜSAVAT
N 223 (5932) 6 sentyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qərbin Qarabağda müharibə narahatlığı

## Münaqişənin yenidən alovlanmaması üçün cəhd göstərən tərəflərin Ermənistan qarşısında şərt qoymasının zamanı yetişib



**Avqust ayının əvvəlində Azərbaycan-Ermənistan cəbhəsində gərginliyin artması, daha konkret ifadə etsək, müharibənin 3 günlük yenidən alovlanması həm də beynəlxalq aləm üçün ciddi siqnal oldu. Yəni dünyaya bir daha bəlli oldu ki, əvvəla, münaqişənin dondurulmuş vəziyyətdə uzun müddət saxlanılması mümkün deyil, ikincisi, Ermənistanın işğalçı qüvvələri daim atəşkəsi pozmaqla cəbhədə vəziyyəti gərginləşdirirlər, üçüncüsü, sülh danışıqlarının səmərəsizliyi, daha doğrusu, ermənilərin işğalçılıq siyasətindən əl çəkməmələri səbəbindən Azərbaycan öz torpaqlarını istənilən vaxt hərbi yolla işğaldan azad edə bilər.**

Məhz bu həqiqətlər bəlli olduqdan sonra prezidentlərin Soçi görüşündə, eyni zamanda ondan sonrakı mərhələdə də həm vasitəçilər, həm də beynəlxalq qurumlar sülh danışıqlarının hansısa bir nəticə verməsi üçün səyləri artırmağın vacibliyi barədə bəyanatlar səsləndirirlər.

Son olaraq iki gündür keçirilən NATO sammiti zamanı baş tutan görüşləri də bu kontekstdə qeyd etmək lazımdır.

Müşahidələr göstərir ki, MDB məkanında vəziyyətin kifayət qədər mürəkkəbləşdiyi, Rusiyanın Ukraynada aranı qatdığı, müharibə başlatdığı bir vaxtda beynəlxalq aləm Cənubi Qafqaz regionunda da bu cür təxribatların törədilə biləcəyinin fərqindədirlər. Və təbii ki, bu sırada Qarabağ münaqişəsinin yenidən alovlandırıla biləcəyi təhlükəsinin daha real olduğunu nəzərdən qaçırmırlar. Məhz bu səbəblər dünyanın diqqətini Dağlıq Qarabağ münaqişəsinə, daha doğrusu, bu problemin həllinin sülh yolu ilə tənzimlənməsi məsələsinə yönəldib.

Bütün səylərin bu istiqamətə yönləndirilməsinə baxmayaraq, demokratiya paytaxtlarında Qarabağ məsələsi ilə bağlı ciddi narahatlıqlar var. Məsələn, NATO sammiti ərəfəsində Amerika Birləşmiş Ştatlarının "Huffington Post" onlayn qəzeti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə dərc edib. APA-nın verdiyi məlumata görə, siyasi analitik **Klod Salhaninin** müəllifi olduğu məqalədə Azərbaycan və Ermənistanın atəşkəsə baxmayaraq, müharibə şəraitində olduğu, 20 ildir "dondurulmuş münaqişə" ətrafında nəticəsiz danışıqların getdiyi qeyd olunur.

**Analitik yazır ki, ortada üç həll variantı müzakirə olunur:** "Hər variant tərəflərdən hansı üçünsə "turş" dad verir, çünki ortada sehrli həll yolu yoxdur. Lakin qanlı münaqişənin həllini axtarmağın reallığı da budur. Tərəflər "status-kvo"nu davam etdirməyə razılaşa və ya razılaşmaya bilərlər. Onlar vaxtaşırı silahlı toqquşmalara və bir-birinə zərbə vuran ritorikaya davam edə bilərlər. Belə olduğu halda Azərbaycanın 20 faiz ərazisini işğal etmiş Ermənistan bu əraziləri hələ də nəzarətdə saxlamaqla müvəqqəti üstünlük əldə edir, lakin bu, hərbi qarşıdurmanın qızışmasına aparır. Belə olduğu halda, Bakı üçün başqa variant qalmır".



**Müəllif qeyd edir ki, nə qədər arzuolunmaz olsa da, hərbi qarşıdurma yeganə həll yolu kimi görünə bilər:** "İrəvanın nəzərə almalı olduğu iki yeni faktor var: Türkiyədə Rəcəb Tayyib Ərdoğanın prezident, Əhməd Davudoğlunun isə baş nazir olması. Bu iki şəxs Azərbaycanın inadlı dəstəkçiləridir və rəsmi Bakıya işğal olunmuş əraziləri azad etməkdə dəstək vəd ediblər. Türkiyə Azərbaycanla həmrəylik nümayiş etdirərək, Ermənistanla sərhədlərini bağlayıb".

Ermənistan isə bir çox yerli "başağrılara" və daxili iqtisadi, siyasi və sosial çətinliklərinə baxmayaraq, hazırda Rusiyanın himayəsi altında özünü nisbətən toxunulmaz hiss edə bilər. Lakin Rusiyanın Ukrayna münaqişəsi kimi başqa bir münaqişəyə daha çox cəlb olunması ilə Ermənistanın vəziyyəti də bir anda dəyişə bilər. Bu, Ermənistanı "soyuqda" köməksiz buraxa bilər.

K.Salhani ikinci variant kimi **hərbi yolu görür və bu həll variantında Azərbaycan ordusunun üstünlüyünə diqqət çəkir. Lakin analitik müharibəni regionun təhlükəsizliyi baxımından əlverişli həll yolu hesab etmir. O, sonuncu variant kimi ən real həll yolunu dialoq və sülhdə görür:** "Bu, ən gözəl variant olsa da, düşmənləri danışıqlara cəlb etmək baxımından da ən çətin variant olacaq. Münaqişə mahiyyət etibarilə heç də asan həll olunası problem deyil. Lakin səmərəli dialoq üçün hər iki tərəfin görüşlərin davam etməsində maraqlı olması lazımdır. Cəbhədə qarşıdurma davam etdiyi bir zamanda dialoqu uğurla aparmaq çox çətindir".

Məqalənin ruhundan anlaşılan budur ki, Amerikada artıq anlayırlar ki, Azərbaycan mövcud "status-kvo"nu öz xeyrinə dəyişmək üçün kifayət qədər geniş imkanlara sahibdir. Azərbaycanın regionun ən güclü ölkəsinə çevrilməsini də heç şübhəsiz ki, analitiklər nəzərə alırlar. Eyni zamanda onlar başa düşürlər ki, Türkiyənin yeni rəhbərliyi Azərbaycana daha ciddi dəstək verəcəklər, xüsusilə Qarabağ məsələsində çox ciddi prinsipiallıq nümayiş etdiriləcək. Bütün bunların fonunda Azərbaycanın artıq Ermənistan qarşısında konkret şərt qoymaq üçün real imkanları, ən əsası haqqı var. Yaranmış situasiyada Azərbaycanın öz torpaqlarını hərbi yolla azad etmək qüdrəti və ölkə rəhbərliyinin bu istiqamətdə daim verdiyi bəyanatlar da, görünür, regionda müharibə istəməyənləri də düşünməyə vadar edir...

***

Bu arada Minsk Qrupunun ABŞ-dan olan həmsədrinin də sülhə çağırış edən açıqlama ilə çıxış etməsi diqqəti cəlb edir.

"Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sarkisyan arasına dünən Uelsdə baş tutan danışıqlar səmərəli keçib". Trend xəbər verir ki, bu barədə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik özünün twitter sosial şəbəkəsindəki səhifəsində yazıb.

**Həmsədr qeyd edib:** "Uelsdə Azərbaycan və Ermənistan prezidentləri arasında danışıqlar səmərəli keçib. Biz kömək etməyə hazırıq".

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin məlumatında isə bildirilmişdi ki, ABŞ-ın dövlət katibi Con Kerri Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sarkisyanla NATO sammiti çərçivəsində keçirdiyi görüşdə Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində artan gərginliklə bağlı öz dərin narahatlığını ifadə edib...

Dünyanın sülh danışıqlarının davam etməsi ilə bağlı narahatlığını başa düşmək mümkündür. Ancaq ortada çox ciddi bir məsələ var; sülh danışıqlarının nəticə verməməsinin yeganə baiskarı Ermənistandır. Və buna real bir fakt göstərək; NATO sammiti keçirildiyi ərəfədə ermənilər cəbhə xəttində atəşkəs yenidən pozublar. Azərbaycan Müdafiə Nazirliyinin saytı xəbər yayıb ki, erməni silahlı bölmələri avqustun 4-də və 5-i gecəsi Ağdam rayonunun Şurabad, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri ərazisindəki mövqelərindən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar. Düşmən cavab atəşi ilə susdurulub.

Beynəlxalq ictimaiyyət, Qərb Qarabağda müharibə başlamamasını, sülh danışıqlarının nəticə verməsini istəyirsə, o zaman Ermənistana real təzyiqlər göstərilməlidir. Çünki burada yeganə günahkar tərəf Ermənistandır və məhz onların işğalçılıq siyasətini davam etdirmələri üzündən münaqişəni tənzimləmək mümkün deyil. Ümumi narahatlıq ifadə edilməklə nəyəsə nail olmaq mümkün deyil, sadəcə, sülh danışıqlarına əngəl olan erməniləri işğalçılıq siyasətindən çəkinməyə vadar etmək lazımdır.



## "Serj Sarkisyanın psixi durumu bərbad vəziyyətdədir"

**Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, PA-nın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Ermənistan Prezidenti Serj Sarkisyanın psixi durumunun bərbad vəziyyətdə olduğunu açıqlayıb.**

"Trend"in məlumatına görə, Novruz Məmmədov bu barədə öz twitter səhifəsində deyib ki, son bir ayda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Serj Sarkisyanla keçirilmiş iki görüşdə belə qəti qənaətə gəlib ki, onun psixi durumu bərbad vəziyyətdədir.

PA rəsmisinin sözlərinə görə, ən yüksək səviyyəli görüşlər zamanı hamı müşahidə edir ki, Ermənistan prezidentinin işlətdiyi ifadələr, hərəkətləri, sifətinin mimikası situasiyaya adekvat olmur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT

Son səhifə

N 223 (5932) 6 avqust 2014

# Evindən 38 piton çıxdı



Avstriyanın paytaxtı Vyanada yaşayan 25 yaşlı gəncin evindən 38 ədəd piton ilanı tapılıb. Məlumata görə, oğlan internet üzərindən ilanların satışına başlayıb. Bundan xəbər tutan heyvansevərlər polisə xəbər veriblər. Adı açıqlanmayan satıcıya zəng edən polislər ilan almaq istədiklərini deyiblər. Qapı döyüldüyü üçün müştəri gəldiyini düşünən gənc polislərlə qarşılaşıb. Evdə axtarış aparan polislər xüsusi olaraq hazırlanmış şkafın siyirmələrində, plastik qutularda saxlanılan 38 ədəd piton ilanı tapıblar. Heyvanları əlindən alınan gənc həbs edilib. Polislər internet üzərindən özbaşına heyvan satılmasının qadağan olduğunu deyib.



## İtin mədəsində 43 corab aşkarlandı

Evdəki corabların yarısını yeyən it görənləri şoka salıb. Portuqaliyada yaşayan 3 yaşlı Danua adlı itin mədəsindən rəngbərəng 43 ədəd corab çıxarılıb. Dovelevis adlı heyvan xəstəxanasına gətirilən itin mədəsinə USM aparatı ilə baxan həkim corabları gördüyü zaman şoka düşüb. Uzun müddətdir evdəki corabların itməsindən və itin narahatlığından şübhələnən ailə onun əməliyyat edildikdən sonra rahatlaşdığını deyiblər.



## Prezidentin maşını oğurlandı

Keniyada artan maşın oğurluqlarının son qurbanı ölkə prezidenti Uhuru Kenyatta olub. Prezidentin qoruma maşınlarından biri ötən həftə oğurlanıb. "Kenya Daily Nation" qəzetinin xəbərinə görə. Maşın Uqandanın Tororo şəhərindəki bir qəsəbədə tapılıb. Məlumatlara görə, maşın oğurlanarkən prezident maşında olmayıb. Avtomobil təhlükəsizlik xidmətinin əməkdaşlarının nəzarəti altında olarkən oğurlanıb. Maşının 4 silahlı oğru tərəfindən qaçırıldığı deyilir. Oğurlanan maşının içindəki sürücünü 6 saat sonra sərbəst buraxıblar. Oğurluq qruplaşması ilə əlaqəsi olan 3 nəfər nəzarətə götürülüb.

# iPhone 6 üçün növbə başladı

Amerikanın Nyu-York şəhərində İpone6 markalı telefonu almaq istəyənlər mağazanın qarşısında növbəyə durmağa başlayıblar. Telefonların ilk dəfə satışa çıxarılacağı mağazanın qarşısında çadır quran fanatlar yağış, isti, soyuq demədən növbə gözləyirlər. Növbədə duranların bəziləri telefonun ilk sahiblərindən olmaq, kimi də iPhone firmasına dəstək olmaq üçün çadırlarda növbə gözləyir. iPhone 6 növbəsində birinci sırada olan 25 yaşlı maniken Moon Ray "AA" müxbirinə verdiyi açıqlamada əri Jason Rayla birlikdə növbəyə dayandığını, lakin əsas məqsədinin bir internet saytını reklam etmək olduğunu açıqlayıb. Ray cütlüyü bu günə qədər bir neçə televiziya və radio kanalına məqsədləri haqda açıqlama veriblər. Maniken ötən il 15 gün növbə gözləyərək rekord qırmışdı. Bu il isə 17 günlük gözləmək rekordunu qırmaq niyyətindədir.





## Bütün qapıları açan açar

1970-ci illərdə agentlərin qapıları açmaq üçün istifadə etdiyi "Bolqar açarı" adlı xüsusi aparat İtaliyada ev oğurluqlarının sayının artmasına səbəb olub. Oğru qruplaşmaların qapıları açmaq üçün istifadə etdiyi açar bütün qapıları 30 saniyəyə açır. Xüsusilə yaz aylarında italyanların qorxulu yuxusuna çevrilən açar üçün ev sahibləri yeni yol tapılmasını istəyir. 30 saniyə ərzində bütün qapıları açan açardan daha çox yay tətilinə çıxan ailələrin evinə girərkən istifadə edilir. Məlumatlara görə, bu açardan daha çox agentlər və xüsusi təyinatlılar düşmənlərin, qaçaqların evlərinin qapısını açmaq üçün istifadə edirdilər.

## Qoroskop




**QOÇ** - Son zamanlar ciddi cəhdlərinizin boşa çıxması sizi məyus etməməlidir. Çünki hər kəsin bir şansı var. Siz də gözləməlisiniz. Bu günsə yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**BUĞA** - Bir çox məsələlərdə səhvlərə yol verirsiniz. Özünüzə aludə olmayın. Bəzən ətrafınızdakılardan məsləhət almağı da unutmayın. Axşamüstü maraqlı görüşlərin iştirakçısı ola bilərsiniz.

**ƏKİZLƏR** - Gün ərzində ovqatınız nataraz olsa da, qarşınızda duran vəzifələrin öhdəsindən gələcəksiniz. Günün ikinci yarısında isə şəxsi büdcənizdə müəyyən qədər artım ola bilər.

**XƏRÇƏNG** - Səfərlər planınız varsa, onu bəri başdan təxirə salın. Çünki ulduzlar bu təqvimdə sizə kifayət qədər ciddi işlər həvalə edəcək. İşgüzar sövdələşmələrdə sizi müvəffəqiyyət gözləyir.

**ŞİR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün şanslarınız var. Taleyinizdə əhəmiyyətli rol oynaya biləcək adamlarla əlaqələri dərinləşdirin. Bu gün səfərə çıxmaq da uğurludur.

**QIZ** - Qarşılıqlı əlaqələrdə tədbirli olmağa çalışın. Əks təqdirdə, müsahibləriniz tərəfindən aldadıla bilərsiniz. Qarşınızda gözəl perspektivlər durur. Odur ki, ruh düşkünlüyündən qurtulun.

**TƏRƏZİ** - Reallıqdan uzaq düşməyin. Bütün planlarınızı yalnız xəyalınızda reallaşdırmayın, konkret fəaliyyətə keçin. Dünəndən bəri neqativ Ay bürcünüzdə olduğundan mübahisələrə yol verməyin.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı gərginliyiniz mümkündür. Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Riskli pul sövdələşmələrindən, məxfi danışıqlardan uzaq olmağa çalışın.

**OXATAN** - Uğurlu nəticəsinə tam əmin olmadığınız məsələlərə girişməyin. Yoxsa xoşagəlməzliklə qarşılaşacaqsınız. Bu təqvimdə kənardan kiminsə məsləhətilə addım atmamalısınız.

**OĞLAQ** - Bəxtinizdə kifayət qədər uğurlu bir tarix var. Əzmkarlığınızı artırmaqla bu müvəffəqiyyəti özünüzə və özünüzü ona yaxınlaşdıra bilərsiniz. Axşamsa qonaq getməyə çalışın.

**SUTÖKƏN** - Təcrübəli insanların köməyinə ehtiyacınız olduğundan Göy qübbəsi sizə kömək göstərəcək. Odur ki, ruh düşkünlüyünə qapılmayın. Sənədlərlə bağlı problemləri aradan qaldırın.

**BALIQLAR** - Qarşılıqlı münasibətlər baxımından uğurlu olsa da, maddi cəhətdən mübahisəli bir gün yaşayacaqsınız. Özünüzü maksimum təmkinli aparın. Haqqınızı qanunlar çərçivəsində tələb edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Təyyarə böyüklüyündə dinozavr




Argentinanın Patagonia bölgəsində Boeing 737 tipli bir təyyarə böyüklüyündə dinozavr qalığı tapılıb. İllərdir Argentinada dinozavr qalıqları axtaran araşdırmaçılar Scientific Reports jurnalında son kəşflərini yayımlayıblar. "Dreadnoghtus" adı verilən dinozavrın 77 milyon il əvvəl yaşadığı, ot yediyi və 60 ton ağırlığı olduğu açıqlanıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 10.565